HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 19 (810) ▪ 18 may 2016

www.vergiler.az

Qiyməti: 55 qəp.

## ABŞ-ın dövlət katibi cəbhə xəttində baş verənlərdən narahatlığını ifadə edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Avstriya Respublikasına işgüzar səfəri çərçivəsində ABŞ-ın dövlət katibi Con Kerri ilə görüşüb. Görüşdə ABŞ-ın dövlət katibi Con Kerri ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin son dövrlər cəbhə xəttində baş verən hadisələrdən narahatlığını ifadə edib. Bu səbəbdən də həmsədr dövlətlərin Amerika Birləşmiş Ştatlarının təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında görüşün keçirilməsi qənaətinə gəldiklərini vurğulayan Con Kerri bu görüşdə bir sıra məsələlərlə bağlı müəyyən razılığın əldə olunmasının vacibliyinə toxunub.



ABŞ-ın dövlət katibi tərəflərin danışıqlar masası arxasına qayıtmalarını, qarşılıqlı etimad tədbirlərinin və anlaşmanın gücləndirilməsini istədiklərini bildirib. Qeyd edib ki, bu yolla danışıqlar prosesinə konstruktiv xarakter verilməli və danışıqlar davam etdirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev bu görüşün təşkilinə görə Amerika Birləşmiş Ştatlarının dövlət katibinə təşəkkürünü bildirib. Dövlətimizin başçısı bu məsələlər ətrafında danışıqların davam etdirilməsinə hazır olduğunu vurğulayıb.

## Azərbaycan ilə Aİ arasında əməkdaşlıq müsbət qiymətləndirilib

Mayın 16-da Avstriya Respublikasına işgüzar səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələrinin hazırkı vəziyyətindən məmnunluq ifadə olunub. Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin Azərbaycana səfərinin yüksək səviyyədə keçdiyi və səfərin yaxşı nəticələrinin olduğunu qeyd edilib.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Qarşılıqlı anlaşma və etimad tədbirləri nəticəsində atəşkəs rejiminə riayət olunmasının vacibliyi vurğulanıb, bu il aprelin əvvəlində qoşunların təmas xəttində baş vermiş hadisələr müzakirə edilib.



## Prezident Dağıstan Respublikasının nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı öz adından və bütün Azərbaycan xalqı adından görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin xatirəsinə şəxsən Ramazan Abdulatipov və qardaş Dağıstan xalqı tərəfindən göstərilən hörmətə görə minnətdarlığını bildirib. Mahaçqala şəhərində Əziz Əliyevin abidəsinin təntənəli açılışını və bununla bağlı Dağıstan Respublikasının başçısının da, Əziz Əliyevin nəvəsi kimi, dağıstanlıların onu daim yaddaşlarında saxlamalarının, xatirəsinə hörmətlə yanaşmalarının, Dağıstanın inkişafı və xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində gördüyü işləri yüksək qiymətləndirmələrinin onun üçün ikiqat xoş olduğunu xatırladıb. Prezident İlham Əliyev bu cür xoş ənənələrin bu gün Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin, o cümlədən Dağıstanla Azərbaycan Respublikasının əməkdaşlığının inkişafında önəmli faktorlardan biri olduğunu qeyd edib.



şəxsən qərar qəbul etməsini yüksək qiymətləndirən Prezident İlham Əliyev bu təntənəli mərasimdə ölkəmizin böyük nümayəndə heyətinin iştirak etdiyini vurğulayıb.

Dövlətimizin başçısı mərasimdə Ramazan Abdulatipovun çıxışı zamanı onun ulu öndər Heydər Əliyev, Əziz Əliyev və Azərbaycan Respublikasının Prezidenti haqqında dediyi xoş və səmimi sözlərə görə təşəkkürünü bildirib. Əziz Əliyevin Azərbaycanın, Dağıstanın görkəmli dövlət xadimi olduğunu qeyd edən Prezident İlham Əliyev bir ölkə başçısı, eyni zamanda Dağıstan Respublikası başçısının «Əziz Əliyev və Dağıstan» adlı kitaba müəlliflik etməsindən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bu kitabın yazılmasına vaxt tapdığına və orada Əziz Əliyev haqqında ifadə olunan xoş sözlərə görə, Əziz Əliyevin Dağıstan və Azərbaycan qarşısındakı xidmətlərinin, Böyük Vətən müharibəsi illərində göstərdiyi fəaliyyətin işıqlandırılmasına görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı bildirib ki, bu gün həm də Azərbaycanda Dağıstan mədəniyyət günləri başlanır və bu, bizim ölkəmiz üçün önəmli bir hadisədir. Dağıstan həmişə bizim üçün dərin tarixi tellərlə bir-birimizə bağlı olan qardaşlarımızın yaşadığı bir doğma diyar olub və olacaq. Prezident İlham Əliyev Azərbaycanla Dağıstan arasında qardaşlıq telləri bu gün Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hər iki tərəfin strateji əlaqələr kimi xarakterizə etdiyi ikitərəfli münasibətlərin inkişafında önəmli rol oynadığını vurğulayıb. Ramazan Abdulatipovun rəhbərliyi ilə Dağıstanda bu gün həyata keçirilən inkişaf proseslərinin, mövcud sabit ictimai-siyasi vəziyyətin Azərbaycanda böyük məmnunluq hissi doğurduğunu qeyd edib.

Xoş sözlərdən məmnun olduğunu bildirən Ramazan Abdulatipov ilk növbədə Dağıstanla əməkdaşlıq məsələlərinə göstərdiyi diqqətə görə dövlətimizin başçısına minnətdarlığını qeyd edib: «Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin əsası milli liderlərimiz Heydər Əliyev və Vladimir Putin tərəfindən qoyulmuşdur və Siz bu gün müasir Azərbaycanın rəhbəri kimi ölkələrimiz arasında strateji əməkdaşlığa əsaslanan münasibətlərimizin inkişaf etdirilməsi siyasətini davam etdirirsiniz. Vladimir Putin hələ 2001-ci ildə Rusiya-Azərbaycan münasibətlərinin əhəmiyyətini qeyd edərkən ölkələrimizin inkişafında regionlararası əməkdaşlığın rolunu vurğulamışdı. Mənim bu səfərim də həmin baxışlara əsaslanır və biz Azərbaycanla əməkdaşlığı inkişaf etdiririk. Biz dünən Rusiyanın, Sovetlər İttifaqının, Azərbaycanın və Dağıstanın böyük dövlət xadimi Əziz Əliyevin abidəsinin açılışını bayram etdik. Əziz Əliyev dəfələrlə demişdi ki, biz bir xalqıq və doğrudan da minillik tarixi əlaqələrimizin ümumi kökləri, çox yaxın mədəniyyətləri və ənənələri vardır. Bundan başqa, biz 200 ildən artıqdır ki, rus xalqı ilə bağlıyıq».

Ramazan Abdulatipov Prezident İlham Əliyevlə əvvəlki görüşləri məmnunluqla xatırladaraq, dövlətimizin başçısının rus dili və mədəniyyəti haqqında söylədiyi dəyərli fikirlərin çox önəmli olduğunu bildirib.

Görüş zamanı əməkdaşlığın müxtəlif sahələrdə perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Vyanada Azərbaycan və Ermənistan prezidentlərinin iştirakı ilə görüş keçirilib

Mayın 16-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın, ABŞ-ın dövlət katibi Con Kerrinin, Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun, Fransa Respublikasının Avropa məsələləri üzrə dövlət katibi Harlem Desirin, ATƏT-in Minsk qrupunun həmsədrlərinin, ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşikin iştirakı ilə görüş keçirilib.

## Azərbaycan – İran əlaqələri yüksək səviyyədədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də İran İslam Respublikasının kənd təsərrüfatı naziri Mahmud Höccətinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafının razılıq doğurduğunu qeyd edib. Azərbaycan ilə İranın dost, qardaş, qonşu ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev hər iki ölkənin siyasi rəhbərliyinin İran-Azərbaycan əlaqələrinin daha da yüksək səviyyədə olması üçün çalışdıqlarını məmnunluqla vurğulayıb. Kənd təsərrüfatının ölkələrimiz üçün vacib sahələrdən biri olduğunu deyən dövlətimizin başçısı digər sahələrdə olduğu kimi bu sahədə də Azərbaycan-İran əməkdaşlığının yaxşı nəticələr verəcəyini əminliklə bildirib. Prezident İlham Əliyev İranda kənd təsərrüfatı sahəsində çox böyük uğurların əldə edildiyini vurğulayaraq Azərbaycanda da bu sahənin daha da inkişaf etdirilməsi və ölkəmizin öz ərzaq təhlükəsizliyini təmin etməsi istiqamətində böyük işlərin görüldüyünü qeyd edib. Dövlətimizin başçısı İran İslam Respublikasının kənd təsərrüfatı naziri Mahmud Höccətinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı əməkdaşlığımıza dair danışıqların səmərəli olacağına və birgə layihələrin icrası istiqamətində ciddi addımlar atılacağına ümidvar olduğunu bildirib.

Nazir Mahmud Höccəti İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçısına çatdırıb. O, son vaxtlar ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərin İranda böyük məmnunluqla qarşılandığını qeyd edib.

Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində investisiya qoyuluşu, birgə müəssisələrin yaradılması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş edib.

## İkitərəfli münasibətlər dostluq və strateji tərəfdaşlıq xarakteri daşıyır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Bolqarıstan Respublikasının xarici işlər naziri Daniel Mitovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Bolqarıstanın Prezidenti Rosen Plevneliyev və Baş nazir Boyko Borisov ilə həm Bolqarıstanda, həm Azərbaycanda keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq bu görüşlərin müntəzəm xarakter daşımasının önəmini qeyd edib. Əlaqələrimizin uğurla və dostluq ruhunda inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Bolqarıstanın Azərbaycanın yaxın dostlarından biri olduğunu vurğulayıb.

Siyasi sahədə münasibətlərimizin çox yaxşı səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin Bolqarıstan ilə iqtisadi əməkdaşlığı genişləndirmək niyyətində olduğunu bildirib. Bolqarıstanın «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasında yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə edərək «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla icra olunduğunu xatırladıb. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlıq planlarını dəstəklədiyinə görə Bolqarıstana təşəkkürünü bildirən dövlətimizin başçısı strateji əhəmiyyət daşıyan əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd edib.

Bolqarıstanın xarici işlər naziri Daniel Mitov göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlıq edib. Ölkələrimiz arasında əlaqələrin çox yüksək səviyyədə olduğunu vurğulayan Bolqarıstanın xarici işlər naziri «Cənub Qaz Dəhlizi» layihəsinin ölkəsi üçün strateji əhəmiyyət daşıdığını vurğulayaraq bu layihənin təkcə Azərbaycan ilə Bolqarıstan arasında deyil, eləcə də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının genişləndirilməsi üçün imkanlar açacağına əminliyini bildirib.

Görüşdə kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

# Proqnoz tapşırığına 104,8 faiz əməl olunub

2016-cı ilin yanvar-aprel ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 2 milyard 204 milyon 972,7 min manat vəsait daxil olub, proqnoz tapşırığına 104,8 faiz əməl edilib.

Bu ilin ilk dörd ayı ərzində 37 min 80 vergi ödəyicisi qeydiyyata alınıb.

# Vergi nəzarəti tədbirləri zamanı qanunvericiliyin tələblərinin pozulması faktları aşkar edilib

Vergilər Nazirliyi tərəfindən Bakı şəhəri ərazisində keçirilmiş vergi nəzarəti tədbirləri zamanı alkoqollu içkilərin qanunsuz istehsalı, saxta aksiz markaları ilə markalanması və ya aksiz markası olmadan satılması halları, həmçinin xeyli sayda işçiləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqavilələri (kontraktı) hüquqi qüvvəyə minmədən işlərə cəlb edən şəxslər aşkar edilib.

Reyd zamanı Bakı şəhərinin Keşlə qəsəbəsində fiziki şəxs Elşad Qənbər oğlu Əliyevin qanunsuz şəkildə əmtəə nişanı adından istifadə etməklə alkoqollu içkilərin istehsalı ilə məşğul olduğu müəyyən edilib. İlkin araşdırmalar zamanı istehsal sexində bir neçə rulon istifadə olunmamış saxta aksiz markaları, eləcə də 120 ədəd Rusiya Federasiyasının aksiz markası, 1226 ədəd saxta etiket, 625 ədəd qapaq, 3182 ədəd boş butulka, 1130,5 manat dəyərində 230 butulka saxta aksiz markaları ilə markalanmış və 163 manat dəyərində 33 butulka aksiz markasız alkoqollu içkilər, ümumilikdə 783 manat dəyərində 195 litr spirt, 38 litr rəngli alkoqollu içki və 28 litr araq aşkar edilib.

Fiziki şəxs Seyfəddin Mübariz oğlu Qəhrəmanovun sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu Nizami rayonu, B.Çobanzadə küçəsi, 215 ünvanda yerləşən ərzaq mağazasında alış qiymətləri ilə ümumilikdə 4586,46 manat dəyərində 593 ədəd aksiz markaları ilə markalanmalı olan mal, o cümlədən 1407 manat dəyərində 71 butulka saxta aksiz markaları ilə markalanmış, 635 manat dəyərində 38 butulka aksiz markasız alkoqollu içkilər, habelə 450 manat dəyərində 185 ədəd aksiz markasız tütün məmulatı aşkar edilib.

Əmək münasibətləri sahəsində həyata keçirilən nəzarət tədbirləri çərçivəsində işçiləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqavilələri (kontraktı) hüquqi qüvvəyə minmədən işlərin yerinə yetirilməsinə cəlb edən Əlisəfa Süleyman oğlu Quliyevin və Validə Cümşüd qızı Absalamovanın sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları tikiş (dərzi) sexlərində vergi nəzarəti tədbirləri keçirilib. Bu zaman fiziki şəxs Əlisəfa Quliyevə aid sexdə işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmiş 26 nəfər, fiziki şəxs Validə Absalamovaya aid sexdə də işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmiş 16 nəfər fiziki şəxslə hüquqi qüvvəyə minmiş əmək müqavilələrinin (kontraktın) olmadığı müəyyən edilib.

İşçilərdən alınmış izahatlardan aydın olub ki, əksəriyyəti bir neçə ay ərzində sexdə çalışdıqlarına baxmayaraq, onların heç biri ilə əmək müqaviləsinin (kontraktı) hüquqi qüvvəyə minməsi ilə bağlı sənədləşdirmə işləri aparılmayıb.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, qanunvericiliklə müəyyən edilmiş vergi öhdəliklərinin vaxtında yerinə yetirilməsi və işçilərin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının qarşısı həmişə qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunda nəzərdə tutulan ən sərt tədbirlər görüləcəkdir.

# Qanunsuz idman-mərc oyunları və lotoreyaların təşkili ilə məşğul olan şəxslər aşkarlanıb

Vergilər Nazirliyi tərəfindən Sumqayıt şəhərində idman-mərc oyunlarının təşkili ilə məşğul olan fiziki şəxslərə məxsus obyektlərdə operativ vergi nəzarəti tədbirləri həyata keçirilib, bir sıra obyektlərdə qanunsuz idman-mərc oyunları və lotoreyaların təşkil edildiyi aşkar olunub.

Fiziki şəxs Xəqani Qismət oğlu Cahangirlinin obyektində vergi ödəyicisi tərəfindən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmiş 1 nəfərlə əmək müqaviləsinin bağlanılmadığı, nağd pul hesablaşması qaydalarının pozulduğu, qanunla müəyyən edilmiş qaydada akkreditasiyasız idman-mərc oyunlarının təşkili və keçirilməsi faktları müəyyən olunub. Departamentin «Sənədlərin və nümunə kimi əşyaların götürülməsi haqqında» qərarına əsasən, obyektdən qanunsuz idman-mərc oyunlarının keçirilməsi üçün istifadə olunan əşyalar və sənədlər götürülüb. Faktla bağlı müvafiq aktlar və «İnzibati xəta haqqında» protokol tərtib edilib.

Fiziki şəxs Ramil Vaqif oğlu Mirzəyevə məxsus obyektdə vergi orqanında qeydiyyatdan keçməyən fiziki şəxs Rövşən Cabar oğlu Cabarovun fəaliyyət göstərdiyi müəyyən edilib. R.Cabarov barəsində «Vergi Məcəlləsinin 33.4-cü və ya 34.3-cü maddələrində göstərilən müddətdə müvafiq ərizənin və ya məlumatın verilməməsinin aşkar edilməsi barədə» akt tərtib olunub. Obyektdə işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilmiş bir nəfərlə əmək müqaviləsinin bağlanılmadığı, nəzarət-kassa aparatının tətbiq olunmadığı, qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkili və keçirilməsi fəaliyyəti ilə məşğul olma faktları müəyyən edilib. Departamentin «Sənədlərin və nümunə kimi əşyaların götürülməsi haqqında» qərarına əsasən, obyektdən qanunsuz idman-mərc oyunlarının keçirilməsi üçün istifadə olunan əşyalar və sənədlər götürülüb, müvafiq aktlar və «İnzibati xəta haqqında» protokol tərtib edilib.

Operativ vergi nəzarəti tədbiri zamanı Ramil Mirzəyevin Sumqayıt şəhərində, Beynəlxalq Bankın yanında yerləşən digər obyektində də qanunsuz mərc oyunlarının keçirildiyi müəyyənləşdirilib. Həmin obyektdə üç nəfərlə əmək müqaviləsinin bağlanılmadığı, nəzarət-kassa aparatının tətbiq olunmadığı, akkreditasiyasız idman-mərc oyunlarının keçirildiyi müəyyən edilərək, müvafiq aktlar və «İnzibati xəta haqqında» protokol tərtib olunub.

Operativ vergi nəzarəti tədbirləri zamanı digər vətəndaş - fiziki şəxs Rəşad Çingiz oğlu Əliyevə məxsus obyektdə bir nəfərlə əmək müqaviləsinin bağlanılmadığı, nağd pul hesablaşması qaydalarının pozulduğu və akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkili və keçirilməsi faktları aşkar edilib. Qanunsuz idman-mərc oyunlarının keçirilməsi üçün istifadə olunan əşyalar və bəzi sənədlər obyektdən götürülüb, müvafiq aktlar və «İnzibati xəta haqqında» protokol tərtib edilib.

Fiziki şəxs Ramiz Ağadadaş oğlu Bəşirovun obyektində iki nəfərlə əmək müqaviləsinin bağlanılmadığı, nəzarət-kassa aparatının tətbiq olunmadığı, qanunsuz idman-mərc oyunlarının keçirildiyi müəyyən edilib, müvafiq akt və protokollar tərtib olunub.

Fiziki şəxs Rəşad Hafiz oğlu Rəsulovun obyektində vergi ödəyicisi tərəfindən nəzarət-kassa aparatının tətbiq olunmadığı, qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkili və keçirilməsi fəaliyyəti ilə məşğul olması faktları müəyyən edilib. Bu faktlar üzrə də müvafiq akt və «İnzibati xəta haqqında» protokol tərtib edilib.

Operativ vergi nəzarəti tədbirlərinin nəticələri üzrə tərtib edilmiş sənədlər qanunamüvafiq tədbirlər görülməsi üçün aidiyyəti üzrə Sumqayıt şəhər məhkəməsinə göndərilib.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, qanunsuz idman-mərc oyunları, habelə lotoreyaların təşkili və keçirilməsi ilə məşğul olan şəxslərə qarşı qanunvericilikdə nəzərdə tutulmuş inzibati tədbirlərin görülməsi məqsədilə vergi nəzarəti tədbirləri davam etdiriləcəkdir.

# Vətəndaşların bütün müraciətlərinə vaxtında baxılıb

2016-cı ilin aprel ayında vergi orqanlarına 8450 müraciət daxil olub. Onlardan 97,3%-i ərizə, 2,5%-i şikayət, 0,2%-i təklifdir.

Müraciətlərin 53%-i müxtəlif arayışların alınması, 21,2%-i kameral vergi yoxlamaları, 6,7%-i vergi borcları, 1,7%-i səyyar vergi yoxlamaları, 1,8%-i vergidən yayınma və dividendlərin verilməsi, 0,8%-i operativ vergi nəzarəti (o cümlədən nağd hesablaşmaların aparılması qaydalarının pozulması), 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,3%-i qanunsuz sahibkarlıq fəaliyyəti, 0,1%-i korrupsiya hüquqpozmaları, 13,9%-i digər məsələlərlə bağlıdır.

Bütün müraciətlərə vaxtında baxılıb, onların72,4%-i müsbət həll olunub.

Ay ərzində vergi orqanlarına daxil olmuş şikayətlərin sayı ötən ilin aprel ayı ilə müqayisədə 32,9% azalıb.

Vergi orqanları tərəfindən ümumilikdə 364 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın şəhər və rayonlarında vətəndaşların qəbulu qrafikinə əsasən, 29 aprel 2016-cı il tarixdə vergilər naziri tərəfindən Neftçala rayonunda vətəndaşlar qəbul edilib.

# Nağdsız ödəniş sistemi genişlənir

*Obyektlərdə POS-terminallardan istifadə edilməsi əhalinin və turistlərin rahatlığına, maliyyə dövriyyəsinin dəqiqliyinə, vergi daxilolmalarının artımına, şəffaflığa münbit şərait yaradır*

«Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsi üzrə 2013-2017-ci illər üçün Dövlət Proqramı» ölkəmizdə nağdsız dövriyyənin həcminin artırılması, eləcə də ödəniş xidmətlərinin institusional və hüquqi bazasının genişləndirilməsi məqsədini daşıyır. Dövlət Proqramında müasir elektron ödəniş alətləri və bank texnologiyalarından istifadənin genişləndirilməsi, elektron ticarətin inkişafının sürətləndirilməsi, nağdsız ödəniş sis-





temləri və hesablaşmalar sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və digər mühüm tədbirlər nəzərdə tutulmuşdur.

Qeyd olunan tədbirlərin yerinə yetirilməsi ilə bağlı iqtisadi subyektlər arasında şəffaflığa nail olmaq, «gizli iqtisadiyyat»ın həcmini azaltmaq, vergidən yayınma hallarının qarşısını almaq məqsədilə Vergilər Nazirliyi Mərkəzi Bank və kommersiya bankları ilə birlikdə ölkənin ticarət və xidmət sektorunda ödəmələrin nağdsız qaydada aparılması üçün müvafiq infrastrukturun təkmilləşdirilməsi istiqamətində ciddi tədbirlər həyata keçirir. Nazirlikdə yaradılmış xüsusi Qərargah tərəfindən POS-terminal quraşdırılmalı olan obyektlərin siyahısı müəyyənləşdirilir, həyata keçiriləcək proseslərin xəritəsi tərtib edilərək banklara təqdim olunur. Qərargah üzvləri ilə yanaşı, yerli vergi orqanlarında da bu işlərlə məşğul olacaq əlavə işçi qüvvəsi cəlb edilmişdir.

Vergilər Nazirliyinin Mərkəzi Bank və digər təşkilatlarla əlaqəli fəaliyyətinin nəticəsidir ki, POS-terminalların sayının artması ilə yanaşı, onlardan istifadə də genişlənməyə başlamışdır. Azərbaycanlıların xaricdə POS-terminal vasitəsi ilə apardıqları nağdsız ödəmə əməliyyatlarının həcmi iki dəfədən çox artmış, vətəndaşlarımızın böyük bir hissəsi daxili bazarda nağdsız ödənişlərə üstünlük verməyə başlamışdır. 2016-cı il aprelin 1-nə olan məlumata görə, respublika ərazisində ticarət və xidmət obyektlərində 75,563 min ədəd POS-terminal mövcuddur. Bunun 43,476 mini paytaxtın, 32,087 mini isə regionların payına düşür. Pərakəndə ticarət obyektlərində 74,271 min ədəd POS-terminal və ya bütün POS-terminalların 98,2 faizi quraşdırılmışdır.

Bakıda keçirilən beynəlxalq idman yarışları və mötəbər tədbirlər zamanı çoxlu sayda idman heyətlərinin və azarkeşlərin, o cümlədən yayda axın edəcək turistlərin gəlişini nəzərə alsaq, ölkədə ticarət, əyləncə, iaşə və s. obyektlərdə nağdsız ödənişlərin artacağını proqnoz etmək olar. Bunu nəzərə alaraq, Vergilər Nazirliyi sözügedən tədbirlərin keçiriləcəyi ərazilərdə POS-terminalların quraşdırılması və onlardan istifadə qaydalarına ciddi nəzarət edir. Vergi əməkdaşları tərəfindən POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə maarifləndirmə işlərinə də böyük önəm verilir. Vergi ödəyicilərinin söylədiklərinə görə, obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi onların da işini xeyli asanlaşdırıb. Vergilər Nazirliyi tərəfindən hazırlanmış «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» və digər materiallar vergi ödəyicilərinin, satıcıların bu sahədə maariflənməsində önəmli rol oynamışdır. Əhali arasında aparılan təbliğat-təşviqat işlərinin genişləndirilməsi, POS-terminallardan istifadənin iqtisadi cəhətdən daha sərfəli olması ilə bağlı konkret əməli tədbirlərin həyata keçirilməsi istiqamətində atılan addımlar ölkə iqtisadiyyatında şəffaflığın yüksəlməsinə, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə və vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərəcək.

**Rəşad SADIQOV**

## Aprel ayında vergi ödəyicilərinə göstərilmiş xidmətlər

**Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı 25825 sual xarakterli müraciət cavablandırılmışdır**



# Partnyorluq münasibətləri inkişaf edir



*Vergi orqanları ilə işgüzar dairələr arasında olan əməkdaşlığın genişləndirilməsi və tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsində böyük rolu olan Amerika Ticarət Palatası ("AmCham") daim bu sistemdə aparılan islahatların, ölkənin vergi mühitinin cəlbediciliyinin artırılması istiqamətində görülən işlərin biznes dairələri tərəfindən uğurla qarşılanmasına yardım edir. Müsahibimiz palatanın icraçı direktoru Natəvan Məmmədovadır.*

***- Natəvan xanım, Amerika Ticarət Palatasının Azərbaycandakı missiyasını ümumi şəkildə necə ifadə edə bilərsiniz?***

- Palatamızın ümumi missiyası özəl sektor ilə hökumət arasında körpü rolunu oynayaraq ölkədə biznes mühitinin təkmilləşdirilməsinə dəstək verməkdir. Biz müxtəlif formatlarda, palatamıza üzv olan şirkətlərin üzləşdiyi problemləri və onların mümkün həlli yollarını, biznes dairələrinin hökumətdən gözləntilərini müvafiq dövlət orqanlarına çatdıraraq, davamlı dialoqu təmin etməyə və nəticə etibarilə Azərbaycan iqtisadiyyatının rəqabətliliyinin gücləndirilməsinə, xarici iqtisadi şoklara davamlılığını artırmağa, ölkəyə daha çox birbaşa xarici investisiya cəlb etməyə çalışırıq.

***- «AmCham»a üzv olan şirkətlər gələcəyi formalaşdırmaq baxımından nə kimi imkanlar əldə edirlər?***

- Şirkətlər palatamıza üzv olmaqla, bir araya gələrək problemlərini və həmin problemlərin həlli yollarını birlikdə müzakirə edib hökumətə peşəkarcasına çatdırılmaq üsulu ilə özləri üçün daha yaxşı gələcək və münbit şərait formalaşdırmaq imkanı əldə edirlər. Bununla yanaşı, Azərbaycana investisiya yatırmaq istəyən və ya hansısa biznes qurmaq istəyən xarici şirkətlərin böyük əksəriyyəti ölkə haqqında, biznes mühiti və potensial imkanlar barədə məlumat almaq üçün bizə müraciət edirlər. Biz də hər bir potensial investor və ya sahibkara ölkənin müqayisəli üstünlüklərini, inkişaf istiqamətlərini göstərməyə və yerli partnyor tapmağa kömək edirik. Biz hazırda daha çox xaricdən Azərbaycana gələn biznes qruplarını qəbul edib onların üzvlərimizlə görüşünə şərait yaradırıq. Misal üçün, ötən ilin noyabr ayında Amerikanın 15 böyük şirkətinin Azərbaycana səfərini və üzvlərimiz ilə B2B («Business to Business») görüşlərini təşkil etdik. Tədbir çox uğurlu oldu. Hesab edirəm ki, palata artıq Azərbaycan şirkətlərinin də qrup şəklində Amerika Birləşmiş Ştatlarına və digər ölkələrə biznes səfərlərini təşkil etməlidir.

***- Hal-hazırda Amerika Ticarət Palatasının üzvlərinin sayı nədərdir və davamlı əməkdaşlıq edən şirkətləri necə qiymətləndirirsiniz?***

-İndi palatamızın 280-ə yaxın üzvü var. Qeyd etmək istərdim ki, Amerika Ticarət Palatası olsaq da, üzvlərimiz arasında çox sayda yerli və Avropa şirkətləri vardır. Üzvlərimizin böyük hissəsi əməkdaşlığın önəmini anlayaraq bizimlə birgə özlərini maraqlandıran məsələlər üzərində çox fəal şəkildə işləyirlər. Üzvlüyə müraciətlərin sayının artması və üzvlərimizin tələbkarlığının güclənməsi bizi çox sevindirir.

***- «AmCham»ın sektor komitələrinin fəaliyyəti haqqında nə deyə bilərsiniz?***

- Palatamızın yeddi daimi komitəsi fəaliyyət göstərir. Bunlardan bəziləri sektoral (misal üçün, Turizm, qonaqpərvərlik və səyahət komitəsi kimi), bəziləri də kross-sektoraldır (misal üçün, Vergi və gömrük komitəsi).

Komitələr palatamızın fəaliyyətinin ana sütunudur. Müxtəlif sahələr və mövzular üzrə hökumət qarşısında qaldırdığımız məsələlər, «Ağ sənəd» də daxil olmaqla, hazırladığımız sənədlər və təkliflər məhz komitə üzvləri tərəfindən hazırlanır. Komitə rəhbərləri yetəri qədər ciddi seçimdən keçdiklərinə görə öz sahələrinin peşəkarlarıdırlar və bu da görülən işlərin keyfiyyətini təmin edir.

***- Aprelin 12-də Cənab Prezident İlham Əliyev sizinlə görüşdə qeyd edib ki, iqtisadiyyatın neft və qazdan asılılığının, həmçinin idxaldan asılılığın azaldılması, eləcə də ixrac təmayüllü istehsal hazırda prioritet təşkil edir. Bu istiqamətdə sizin hansısa təklif və ya layihələriniz olacaqmı?***

- Biz ölkədə aparılan iqtisadi islahatları yaxından izləyirik və ölkə rəhbərliyinin yeni iqtisadi modelin qurulması istiqamətindəki səyləri bizdə böyük məmnunluq hissi doğurur. Ölkədə özəl sektorun artan rolu, kiçik və orta sahibkarlığın inkişafının önəmi, biznes mühitinin yaxşılaşdırılması və şəffaflığın artırılması ölkənin yeni çağırışlara hazır olduğunu göstərir. Biz komitələrimizdə təklif olunan qanunları və dəyişiklikləri müzakirəyə çıxarır, ehtiyac duyulduğu halda rəy formalaşdırıb hökumətə təqdim edirik. Cari ilin mart ayında «AmChamın iqtisadi islahatlara dəstəyi» mövzusunda dəyirmi masa keçirmişik. 200-ə yaxın şirkət nümayəndəsinin iştirak etdiyi tədbirdə Azərbaycan Prezidentinin iqtisadi islahatlar üzrə köməkçisi cənab Natiq Əmirova biznes dairələrini narahat edən məsələləri çatdırdıq. N.Əmirov iştirakçıları ölkədə aparılan islahatlar barədə ətraflı məlumatlandırdı və çoxsaylı sualları cavablandırdı. Bundan əlavə, biz iki ildə bir dəfə biznes və investisiya mühitinin təkmilləşdirilməsinə dair təklif və tövsiyələrimizi «Ağ sənəd» adlandırdığımız təkliflər toplusu formasında hazırlayıb cənab Prezidentə təqdim edirik. Hazırda bu sənədi yekunlaşdırmaq üzrəyik. Sənəddə bizim bu günə olan rəy və təkliflərimiz əks olunub.

***- Azərbaycanda «AmCham» tərəfindən «vergi partnyorluğu» sahəsində hansı işlər görülür?***

- Vergilər Nazirliyi, ənənəvi olaraq, palatamızın ən yaxın tərəfdaşlarından biridir. Nazirliklə olan daimi dialoqumuz, istər illik konfranslar, istərsə də texniki görüşlər səviyyəsində olan sıx əməkdaşlığımız bizim üçün çox önəmlidir. Nazirlik tərəfindən biznesin aparılmasının asanlaşdırılması istiqamətində atılan bütün addımları alqışlayır və üzvlərimizi bu barədə məlumatlandırırıq.

***- Bir ildən artıqdır ki, «AmCham»ın icraçı direktorusunuz. Azərbaycanda fəaliyyətinizin ən uğurlu göstəricisi olaraq nəyi və ya nələri qeyd edərdiniz??***

- İnsanın öz fəaliyyətinə qiymət verməsi həmişə çətindir. Palatamızın fəaliyyətində ən önəmli məqamlardan birinin Azərbaycan Respublikası Prezidentinin «AmCham»ın Direktorlar Şurası və bəzi üzvləri ilə görüşünün mənim fəaliyyətim dövrünə təsadüf etməsi karyeramın ən vacib anlarından biridir.

Bu günədək həm Vergi, həm də Miqrasiya məcəllələrində, eləcə də digər növ qanunvericilik aktlarında palatamızın verdiyi təkliflər öz əksini tapmışdır. Ən son nailiyyətlərimizdən biri də «Valyuta tənzimi haqqında» Azərbaycan Respublikasının qanununa dəyişikliklər edilməsini nəzərdə tutan qanun layihəsinə, xüsusilə «məcburi yığım» tələbinə dair təklif olunan dəyişikliklərin palatamız tərəfindən çevik şəkildə müzakirə olunması, rəylərimizin ölkə rəhbərinə ünvanladığımız məktubda çatdırılmasıdır. Bunun da nəticəsində həmin qanun layihəsi Prezident tərəfindən imzalanmadan Milli Məclisə geri qaytarıldı.

***- «AmCham»ın yaranmasının 20 illiyi münsaibətilə profilində hər hansı dəyişikliklər və yeniliklər nəzərdə tutulurmu?***

- Biz çox dinamik, maraqlı və çağırışlarla dolu bir dövrdə yaşayırıq. Əlbəttə, palatamız da özünü yeni reallıqlara uyğunlaşdırır, yeni layihə və xidmətlər üzərində çalışır. Özəl sektor gücləndikcə tələbləri də artır və bu, davam edəcəkdir. Biz həm proaktiv olararaq yeni fəaliyyət istiqamətləri yaratmalı, həm də gündəlik tələblərə cavab verməliyik.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İkramqızı**

# Gömrük yığımlarının məbləğləri təsdiqlənib

Nazirlər Kabineti «Azərbaycan Respublikasında gömrük fəaliyyətinin növləri üzrə alınan yığımların miqdarları haqqında» 2000-ci il 29 avqust tarixli 151 nömrəli qərarını və «Gömrük nəzarəti və rəsmiləşdirilməsi ilə əlaqədar olaraq bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan şəxslərin və ya onların nümayəndələrinin təşəbbüsü ilə malların gömrük ekspertizasının aparılması üçün alınan gömrük yığımlarının miqdarı»nın təsdiq edilməsi haqqında» 2012-ci il 5 sentyabr tarixli 190 nömrəli qərarını ləğv edib.

Qeyd edək ki, gömrük yığımlarının məbləğləri gömrük orqanları tərəfindən həyata keçirilən xidmətlərə və hüquqi hərəkətlərə görə alınan gömrük yığımlarını müəyyən edir. Gömrük yığımlarının tətbiqi daxili bazarın müdafiəsi və fiskal məqsədlər üçün nəzərdə tutulmur, onların məbləği gömrük orqanları tərəfindən göstərilən xidmətin təxmini dəyərini əks etdirir. Gömrük yığımlarına gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları, malların gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları, gömrük nəzarəti və rəsmiləşdirilməsi ilə əlaqədar olaraq bəyannaməçinin, mallar barəsində səlahiyyəti olan şəxslərin və ya onların nümayəndələrinin təşəbbüsü ilə malların gömrük ekspertizasının aparılmasına görə gömrük yığımları, malların gömrük nəzarəti altında məhvinə görə gömrük yığımları, gömrük müşayiətinə görə gömrük yığımları, malların saxlancına görə gömrük yığımları, gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatının verilməsinə görə gömrük yığımları, bankların və bank olmayan kredit təşkilatlarının Dövlət Gömrük Komitəsinin reyestrinə daxil edilməsinə görə gömrük yığımları daxildir. Mallara və nəqliyyat vasitələrinə gömrük nəzarəti gömrük orqanlarının iş vaxtından kənar saatlarda və ya iş yerindən kənarda həyata keçirildikdə, gömrük nəzarətinin həyata keçirilməsi ilə bağlı gömrük yığımları ikiqat məbləğdə alınır.

Malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında yerləşdirilməsi (tranzit xüsusi gömrük proseduru istisna olmaqla) və bu prosedurun başa çatdırılması üzrə həyata keçirilən hərəkətlərə, həmçinin fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsi zamanı gömrük borcu yarandığı halda, həmin malların rəsmiləşdirilməsinə və yük (karqo) manifesti vasitəsilə Azərbaycan Respublikasının ərazisində hava gəmilərinin konstruksiyası ilə müəyyən edilmiş tutumlara doldurulan və heyət üzvlərinin, xidmətedici heyətin, sərnişinlərin istifadəsi və hava gəmisinin istismarı üçün ehtiyatlar hesab olunan malların gömrük rəsmiləşdirilməsinə görə aşağıdakı məbləğdə gömrük yığımları alınır. Gömrük dəyəri:

- 1000 manata qədər olduqda 10 manat;
- 1001 manatdan 10.000 manata qədər olduqda 50 manat;
- 10.001 manatdan 100.000 manata qədər olduqda 100 manat;
- 100.001 manatdan yuxarı olduqda isə 275 manat.

Azərbaycan gömrük sərhədindən tranzit xüsusi gömrük proseduru altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə görə 30 manat məbləğində gömrük yığımı alınır. «Hasilatın pay bölgüsü haqqında» sazişlərin icrası ilə bağlı Azərbaycanın gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan malların, o cümlədən mənfəət karbohidrogenlərinin gömrük rəsmiləşdirilməsinə görə bu sazişlərin müvafiq müddəaları ilə müəyyən edilmiş məbləğdə gömrük yığımları alınır. Malların və nəqliyyat vasitələrinin müvafiq gömrük proseduru altında tam yerləşdirilməsini nəzərdə tutan bütün növ gömrük bəyannamələrinin hər vərəqi üçün elektron gömrük xidmətinin göstərilməsinə görə 30 manat məbləğində gömrük yığımı müəyyən edilib. Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsi zamanı gömrük borcu yarandığı halda, təqdim edilən sadələşdirilmiş bəyannamələrin rəsmiləşdirilməsi üçün 10 manat məbləğində gömrük yığımı nəzərdə tutulur. Azərbaycanın gömrük ərazisinə gətirilən, o cümlədən müvəqqəti gətirilən nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün 20 manat, digər avtonəqliyyat vasitələri üçün isə 15 manat həcmində gömrük yığımları alınır.

**RƏŞAD**

# ƏDV ilə bağlı qaydalarda dəyişiklik edilib

Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli qərarı ilə təsdiq edilmiş «Vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları»nda dəyişiklik edilib.

Dəyişikliklərdə «Vergi ödəyicisinə verilmiş elektron vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları»nın 1.2-ci bəndinə «Fərdi identifikasiya nömrəsi - Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinə barəsində məlumat daxil edilən Azərbaycan Respublikasının vətəndaşına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə avtomatlaşdırılmış rejimdə xüsusi proqram təminatı vasitəsilə verilən vahid təkrarolunmaz koddur» məzmunlu dördüncü abzas əlavə edilib. Eyni zamanda, qaydalara «Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən yaşayış və qeyri-yaşayış sahələri alan şəxslər tərəfindən vergi hesab-fakturasında, qəbzdə və ya çekdə göstərilən yaşayış və qeyri-yaşayış sahələrinin ƏDV-siz dəyəri bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxsin hesabına, ƏDV-nin məbləği isə ƏDV-nin depozit hesabına köçürülməlidir» məzmunda 1.6-cı bənd və «Sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən alıcıya təqdim olunan vergi hesab-fakturasında, qəbzdə və ya çekdə ƏDV məbləğinin köçürülməsi üçün nəzərdə tutulan ƏDV-nin depozit hesabının rekvizitləri göstərilməlidir» məzmunlu 1.7-ci bənd əlavə edilib.

Qaydaların 1 nömrəli əlavəsində isə - «ƏDV-nin depozit hesabına daxil olmuş pul vəsaitləri haqqında Reyestr»in 4-cü sütununda «VÖEN-i» sözü «VÖEN/FİN-i» sözləri ilə əvəz edilib.

**AYTƏN**

# Ənənəvi istehsal sahələrinin inkişafına dair proqram

İqtisadiyyat Nazirliyi Azərbaycanda ənənəvi istehsal sahələri olan pambıqçılıq, tütünçülük, üzümçülük, şərabçılıq, çayçılıq və yüngül yeyinti emal sənayesinin inkişafını nəzərdə tutan yeni proqram hazırlayır. Sənədə əsasən, regionlarda ənənəvi istehsalla məşğul olan sahibkarlara dövlətin güzəştli kreditlərinin verilməsi, bəzi güzəştlərin tətbiq olunması, ixrac zamanı əlavə stimullaşdırıcı vasitələrdən istifadə və digər tədbirlər nəzərdə tutulur.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun sözlərinə görə, proqram qeyri-neft sektorunun inkişafında mühüm dövlət sənədlərindən biri olacaq. Qeyd olunub ki, Azərbaycanda uzun müddət aparıcı sahələrdən olan yüngül sənaye müəssisələrinin yaradılması, pambıqçılıq təsərrüfatlarının bərpası, o cümlədən tikiş və xalçaçılıq məhsullarının istehsalı üçün yaxşı potensial var. Hazırda Azərbaycan həmin sahələr üzrə tələb olunan malların böyük bir qismini idxal hesabına təmin edir. Bu sektorun gücləndirilməsi həm daxili tələbatın tam ödənilməsi, həm də ixracın artması üçün faydalı ola bilər. Ona görə də ənənəvi sahələrə dövlət dəstəyi tədbirləri əsas prioritetlərdən olacaq.

# «E-hökumət» modeli Sinqapurda təqdim olunub




«Elektron hökumət» portalı Sinqapur Milli Universitetinin (NUS) nəzdində fəaliyyət göstərən «Sistem Elmləri İnstitutu»nun «Elektron Hökumət Liderlik» (eGL) mərkəzində keçirilmiş «Elektron Hökumət Effektiv Strategiyalar» mövzusunda təşkil olunmuş seminarda təmsil olunub.

Beş gün davam edən seminarda professional müəllim və mütəxəssis heyəti tərəfindən nümayəndələrə dərslər keçilib, «Elektronlaşmanın inkişaf mərhələləri və bu istiqamətdə istifadə edilən yanaşmalar», «Xidmətlərin hazırlanma metodologiyaları və vətəndaş istifadəsi», «Dəyişikliklərin idarə edilməsi, bu prosesdə qarşıya çıxan problemlər, onlara yanaşma və həll edilmə yolları» mövzularında müzakirələr aparılıb.

Sinqapurun, eləcə də digər ölkələrin üzləşdiyi qlobal problemlər (əhalinin sıxlığı, sağlam həyat, mobil yaşam və s.), onların həlli yolları və gələcəyə istiqamətlənən tədbirlər diqqətə çatdırılıb.

Kursda iştirak edən «Elektron hökumət» portalının mütəxəssisi Cəmşid Naxçıvanski ölkəmizin «Elektron hökumət» modeli, «Elektron hökumət» portalı, Açıq Hökumət Məlumatları portalı üzrə görülmüş işlər barədə təqdimat əsasında məlumat verib.

Həmçinin ölkələr arasında təcrübə mübadiləsi məqsədilə təşkil edilmiş kursda elektron xidmətlərlə bağlı müxtəlif tipli məlumatların analizi və mütərəqqi konsepsiyaların inkişaf modellərinin təhlili aparılıb. Habelə, elektron mühitin inkişafında sosial medianın rolu barədə məlumatlar verilib.

On doqquz ölkədən 21 nümayəndənin qatıldığı kursun sonunda iştirakçılara sertifikatlar verilib.



Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Ödəmə mənbəyindən tutulan vergi

***Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxsin Azərbaycan Respublikasının rezidentinə göstərdiyi mühasibat xidmətlərinə görə həmin şəxsə ödənilən məbləğ ƏDV-yə və ödəmə mənbəyində vergiyə cəlb edilirmi?***

Azərbaycan mənbəyindən gəlir Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq müəyyən edilir.

Vergi Məcəlləsinin 125.1.5-ci maddəsinə əsasən, qeyri-rezidentin muzdlu işlə əlaqədar alınan gəlirlər istisna olmaqla işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən gəlirlərindən, o cümlədən Vergi Məcəlləsinin 13.2.16.2-ci, 13.2.16.10-cu (Azərbaycan Respublikasında saxlanılan və ya istifadə edilən əmlak üçün alınan royalti şəklində gəlir istisna olmaqla), 13.2.16.12-ci (Azərbaycan Respublikasındakı daşınmaz əmlakın icarəyə verilməsindən əldə edilən gəlir istisna olmaqla) və 13.2.16.14-cü maddələrində göstərilən xidmətlərdən alınan gəlirlərindən və Azərbaycan mənbəyindən əldə edilən digər gəlirlərindən ödəmə mənbəyində 10 faiz dərəcəsi ilə vergi tutulur.

Vergi Məcəlləsinin 168.1.5-ci maddəsinin müddəalarına görə, məsləhət, hüquq, mühasibat, mühəndis və ya reklam xidmətlərinin, həmçinin məlumatların işlənilməsi üzrə xidmətlərin və digər analoji xidmətlərin göstərilməsi işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda həmin daimi nümayəndəliyin olduğu yerdə ƏDV-yə cəlb edilir.

Qeyd olunanlara əsasən:

mühasibat xidmətlərinin göstərilməsinə görə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident hüquqi şəxsə rezident şəxs tərəfindən ödənilən məbləğdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulmaqla yanaşı, həmin məbləğlərə 18 faiz dərəcə ilə ƏDV hesablanır.

# Dövlətin etibarından sui-istifadə yolverilməzdir

Azərbaycanda sahibkarlığın inkişafı üçün güclü hüquqi baza mövcuddur. Sahibkarlıq sahəsində aparılan yoxlamalar 2015-ci il noyabrın 1-dən 2 il müddətinə dayandırılıb, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılıb, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda iki dəfə, regionlarda isə dörd dəfə aşağı salınıb...
Bütün bunlarla yanaşı, qanun həmin müddət ərzində bilavasitə vergi yoxlamalarının keçirilməsinə, eləcə də insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamaların aparılmasına icazə verir. 2016-cı ilin ötən aylarında yoxlamalar əhəmiyyətli dərəcədə, təxminən 500 dəfə azalıb. Əgər 2015-ci ilin birinci rübündə biznes sektorunda 20 min yoxlama keçirilmişdisə, 2016-cı ilin ilk 3 ayında bu rəqəm 30-40 arasında olub...

### Dövlətin maraqları, vətəndaşların təhlükəsizliyi hər şeydən üstündür

Azad biznesə dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi, əsassız yoxlamaların dayandırılması, biznesin qeydiyyatının sadələşdirilməsi və sahibkarların hüquq və mənafelərinin qorunmasına xidmət edən digər təsirli addımların atılmasına baxmayaraq, təəssüf ki, bəzi sahibkarlar onlar üçün verilmiş bu fürsətdən, yoxlamaların dayandırılmasından sui-istifadə edərək müxtəlif yollarla vergidən yayınmağa, yaxud bazara keyfiyyətsiz məhsul çıxarmağa çalışırlar. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin quruma daxil olmuş şikayətlər əsasında apardığı monitorinqlərin nəticəsi göstərir ki, bir sıra kiçik və orta müəssisələr dövlətin etibarından sui-istifadə edir, saxta və keyfiyyətsiz mal istehsal etməyə cəhd göstərirlər. Komitənin rəhbəri Ramiz Həsənov bildirib ki, aparılan monitorinqlər zamanı şikayət etmiş vətəndaşların iddia etdikləri hallar öz təsdiqini tapıb, həm ərzaq, həm də qeyri-ərzaq məhsullarının istehsal sahələrində problemlər üzə çıxıb.

*Bir sıra kiçik və orta müəssisələr dövlətin etibarından sui-istifadə edir, saxta və keyfiyyətsiz mal istehsal etməyə cəhd göstərirlər*

İqtisadçı Ədalət Əsədov deyir ki, bu vəziyyətdə dövlətin maraqları, vətəndaşların təhlükəsizliyi üstün olduğundan, qanunlara hörmət etməyən sahibkarların əməllərinə haqq qazandırmaq olmaz, bu baxımdan, qanunamüvafiq tədbirlərin görülməsi zəruridir. «Dövlət sahibkarların rahat və həvəslə işləməsini təmin edən bütün addımları atır, onlara hərtərəfli diqqət və qayğı göstərilir. Ona görə də sahibkarlar bunu qiymətləndirməli, yaranmış vəziyyətdən sui- istifadə etməməlidirlər. Hər kəs üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirməli və qanunla müəyyən edilmiş öhdəlikləri vaxtlı-vaxtında icra etməlidir. Belədə həm onlar qazanacaq, həm də dövlət».

### Yoxlamaların azaldılması vergidən yayınmaya səbəb olmamalıdır

Qeyd edək ki, dövlətin etibar və etimadından sui-istifadə hallarına vergi ödənişlərində də rast gəlinir. Aparılan təşviqat və maarifləndirmə işlərinə baxmayaraq, özəl sektorda çalışan şəxslər hələ də dövlət büdcəsinə ödənilməli olan vergiləri tam və vaxtında ödəməyin məsuliyyətini dərk etmək istəmirlər. Şou-biznes nümayəndələri, ticarət və xidmət şəbəkələrində çalışanların vergidən yayınmağa meyilli olmasını və nəzarətin azalmasından öz məqsədləri üçün istifadə etmələrini vergi orqanlarının apardıqları müşahidələr də təsdiq edir. Son dövrlərin statistikası göstərir ki, bir çox sahələr, o cümlədən ticarət sektoru vergi nəzarəti tədbirlərinin azalmasından sui-istifadə edərək, dövlət büdcəsinə ödənilməli vergilərin məbləğini azaltmağa və bu yolla vergidən yayınmağa çalışırlar. 2016-cı ilin yanvar-mart aylarında 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə nəzarət tədbirlərinin sayı ümumilikdə 64,2%, o cümlədən səyyar vergi yoxlamaları 40%, kameral vergi yoxlamaları 61,2%, operativ nəzarət tədbirləri 92,5% azaldılıb. Bu tədbirlərin azalması fonunda bir sıra fəaliyyət sahələri üzrə daxilolmalarda, o cümlədən pərakəndə ticarət sahəsində 15,4% azalma müşahidə olunub. Bu isə həmin fəaliyyət sahələri üzrə vergi ödəyicilərinin vergi öhdəliklərini könüllü surətdə yerinə yetirmək istəmədiklərini, vergidənyayınma cəhdlərini göstərir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, sahibkarlıq fəaliyyəti nə qədər azad və şəffaf xarakter daşısa da, dövlətin iqtisadi maraqlarına ziyan gətirməməli, dövlət büdcəsinə ödənilməli vəsaitlərin yayındırılmasına səbəb olmamalı, ümumi iqtisadi-sosial təhlükəsizliyə maneə yaratmamalıdır. Hər bir sahibkar əldə etdiyi gəlirlərdən dövlət büdcəsinə vergi ödəməlidir. Başqa sözlə desək, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin yüksək vergi mədəniyyəti olmalıdır.

### İstehlakçıların hüquqları etibarlı şəkildə qorunur

İqtisadiyyat Nazirliyindən (İN) bildirilib ki, vətəndaşları aldatmaq, keyfiyyətsiz mallar satmaq, istehlakçıların hüquqlarını pozmaq ciddi qanun pozuntusudur və buna qarşı müvafiq tədbirlər görülür və görüləcək. Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti bu istiqamətdə mühüm addımlar atmaqdadır və ticarət və ictimai-iaşə obyektlərinin nümayəndələri, digər sahələrdə çalışan sahibkarlar arasında vətəndaşların hüquqlarının qorunması, qanunlara riayət edilməsi ilə bağlı maarifləndirmə işləri aparılır. Sahibkarlara fəaliyyət göstərdikləri sahələrin məsuliyyəti aşılanır və xatırladılır ki, istehlak bazarında keyfiyyətsiz və təhlükəli malların satışı ilə məşğul olan şəxslərə qarşı lazımi tədbirlər görüləcək.

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının rəhbəri Məmməd Musayev bildirib ki, yoxlamaların sayının azaldılması sahibkarlara öz fəaliyyətlərini tam planlaşdırmağa, iş rejimində hər hansı inzibati fasilələrin baş verməməsinə, xərclərə qənaət etməyə və ən əsası, özəl sektorun genişlənməsinə şərait yaradıb. Yeni sistem sahibkarların fəaliyyətinə kimlərsə tərəfindən yersiz müdaxilələrə heç bir halda imkan vermir. Sahibkar sadəcə dövlət qarşısında məcburi öhdəliklərini, o cümlədən dəqiq hesablanmış vergiləri vaxtında ödəməklə öz işini azad şəkildə qura bilər.

Dövlət başçısı sahibkarlarla bütün görüşlərində onları yaradılan bu cür münbit şəraitdən səmərəli istifadə etməyə səsləyib, yeni iqtisadi şərait və dövrün reallıqlarının sahibkarların məsuliyyətini daha da artırdığını xatırladıb. Çünki dövlətin iqtisadi gücünün artmasında çoxminli sahibkarlar ordusunun fəal rolu ilə yanaşı, onların daha məsuliyyətli olması, qanunlara hörmət edərək ölkənin inkişafına töhfə vermələri olduqca vacibdir.

**Elbrus CƏFƏRLİ**

## Vergi administrasiyaları barədə beynəlxalq sorğu

Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) təşəbbüsü ilə Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən təlimin əsas mövzusu gəlir/vergi administrasiyaları barədə beynəlxalq sorğu (ISORA) layihəsinin icrası ilə bağlı ümumi məlumatlandırma, sorğunun komponentləri, sorğuda istifadə edilən anlayışlar, o cümlədən sorğunun həyata keçiriləcəyi platformadan istifadə qaydaları ilə bağlı olmuşdur. Bu layihə dörd beynəlxalq təşkilatın - Amerikadaxili Vergi Administrasiyaları Mərkəzinin (CIAT), Beynəlxalq Valyuta Fondunun (IMF), IOTA və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə təşəbbüsüdür. ISORA-nın yaradılmasında əsas məqsəd dünya üzrə vergi administrasiyalarının müxtəlif təşkilatlara hesabatvermə yükünün azaldılması, əvəzində vahid bir məlumat bazası yaratmaqla bütün məlumatların bu bazada toplanması və sonradan iştirakçı təşkilatların istifadəsinə verilməsidir. Sorğu IMF-nin Gəlir Administrasiyalarının Vergi Məlumat Aləti (RAFIT) platformasında yerləşdiriləcəkdir. Təlimdə Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin Beynəlxalq əlaqələr şöbəsinin rəisi Fərid Hacıyev iştirak etmişdir.

## Torpaqları təyinatına zidd istifadə edənlər cəzalandırılır

Torpaqların istifadəsi və mühafizəsi ilə bağlı qanunvericiliyin sərtləşdirilməsində məqsəd torpaq ehtiyatlarından əsassız istifadə və ya torpaqların vətəndaşlar, hüquqi şəxslər tərəfindən uzunmüddətli istifadəsiz saxlanması hallarının qarşısını almaq, ondan səmərəli, məqsədli və qənaətli istifadəni təmin etməkdir. Bu məqsədlə paytaxt və regionlarda Əmlak Məsələləri Dövlət Komitəsinin torpaqların istifadəsi və mühafizəsinə nəzarət üzrə dövlət müfəttişləri tərəfindən monitorinqlər keçirilir. Görülən tədbirlər torpaqların məqsədli dövriyyəsinə qaytarılmasına istiqamətlənib.

Abşeron və Bakının Xəzər rayonunda həyata keçirilən monitorinqlər zamanı müxtəlif ərazilərdə 59 hektara yaxın torpaq sahəsinin ayrı-ayrı şəxslər tərəfindən qanunsuz olaraq hasarlandığı, bəzisində təyinatına zidd tikinti işləri aparıldığı müəyyənləşib. Bir sıra hallarda vətəndaşlar və ya hüquqi şəxslər tərəfindən onlara məxsus torpaq sahəsinə dair hüquqi sənəddə göstərilən ölçülərdən əlavə ətrafdakı sahələr də qanunsuz zəbt olunur. Monitorinqlər zamanı aşkar edilib ki, sənədlərdə göstərilən ölçülərdən əlavə 9 hektara yaxın torpaq sahəsi zəbt olunub və tikinti işləri aparılıb. Qanunsuzluqlarla bağlı aktlar tərtib edilib, inzibati tədbirlər görülüb, cərimə və sanksiyalar tətbiq olunub.

Xatırladaq ki, Cinayət Məcəlləsinə edilən dəyişikliklərə əsasən, mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, yaxud həmin torpaq sahəsini özbaşına tutmaya görə cəzalar müəyyən edilib. Belə qanunsuzluqlara yol verənlər 8-10 min manat cərimə və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərlə isə torpağın vəziyyətinə zərərli təsir göstərən tikintilərə görə fiziki şəxslər 200 manatdan 400 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək, hüquqi şəxslər 3000 manatdan 4000 manatadək cərimələnir. Torpaqların istehsalat və ya kimyəvi təsirdən korlanmasına görə fiziki şəxslər 500 manatdan 800 manatadək, vəzifəli şəxslər 2000 manatdan 2500 manatadək, hüquqi şəxslər isə 7500 manatdan 10000 manatadək cərimə ödəməlidir. Torpaqların münbit qatının korlanmasına görə fiziki şəxslərə 600 manatdan 1000 manatadək, vəzifəli şəxslərə 2000 manatdan 3000 manatadək, hüquqi şəxslərə isə 6000 manatdan 8000 manatadək cərimə tətbiq olunur.

Bu il ərzində məhz qeyd olunan halların aradan qaldırılması üçün keçirilən reyd və monitorinqlər zamanı ölkə üzrə 500-ə yaxın pozuntu halı aşkar edilib. Bununla bağlı inzibati tənbeh vermə haqqında 170 qərar qəbul edilib, 950-yə yaxın hal üzrə hüquqi və fiziki şəxslərə xəbərdarlıq olunub, 230 halla bağlı inzibati protokol tərtib edilib.

**AYTƏN**

## Vergi bəyannamələrinin verilməməsinə görə məsuliyyət tədbirləri

Bu və ya digər vergi növü üzrə vergi öhdəliyi olan vergi ödəyiciləri qanunvericilikdə göstərilən müddətdən gec olmayaraq, uçotda olduqları vergi orqanına bəyannamə təqdim etməlidirlər. Əks halda, Vergi Məcəlləsinə görə, vergilərin vaxtında ödənilməməsinə və bəyannamələrin vaxtında verilməməsinə görə məsuliyyət tədbirləri nəzərdə tutulur. Məcəllənin 57.1-ci maddəsinə uyğun olaraq, vergi hesabatını, habelə hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda, vergi orqanına vergi hesabatı əvəzinə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin qərarına əsasən 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Vergi ödəyicisi vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını əsas olmadan müəyyən edilən müddətdə təqdim etmədikdə, vergi orqanı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş formada aktivləri barədə məlumatın 10 gün ərzində vergi orqanına təqdim edilməsini vergi ödəyicisindən tələb edə bilər. Məlumatın vaxtında verilməməsinə görə isə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Məcəllənin 59.1-ci və 59.2-ci maddələrinə əsasən, vergi və ya cari vergi ödəməsi Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur. Bu, vergi ödənişlərinə münasibətdə bütün ötmüş müddətə, ancaq bir ildən çox olmamaq şərti ilə və səyyar vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergi məbləğlərinə həmin vergi məbləğlərinin vergi ödəyicisinə hesablandığı gündən tətbiq edilir.

Bunlarla yanaşı, İnzibati Xətalar Məcəlləsinin 461.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatlarının əsas olmadan müəyyən edilmiş müddətdə Vergilər Nazirliyinə təqdim edilməməsinə görə (həmin sazişlərdə başqa qaydalar nəzərdə tutulduğu hallar istisna olmaqla) vəzifəli şəxslər 50 manat miqdarında cərimə edilirlər. Həmin Məcəllənin 461.2-ci maddəsinə əsasən, «Dövlət rüsumu haqqında» Qanun ilə müəyyən edilmiş hallarda və qaydada dövlət rüsumunun tutulması barədə hesabatın Vergilər Nazirliyinə təqdim edilməməsinə görə də vəzifəli şəxslər eyni məbləğdə cərimə olunur.

İnzibati Xətalar Məcəlləsinin 467-ci maddəsinə əsasən, dövlət rüsumunun ödənilməsi qaydalarının pozulmasına, yəni dövlət rüsumunu tutan səlahiyyətli vəzifəli şəxs tərəfindən dövlət rüsumunun düzgün tutulmaması, yaxud dövlət büdcəsinə vaxtında və ya tam ödənilməməsinə görə vəzifəli şəxsləri 500 manatdan 700 manatadək cərimə gözləyir.




Yeri gəlmişkən, may ayının 20-nə kimi vergi ödəyiciləri gəlir vergisi (xüsusi notariuslar və idman-mərc oyunları üzrə), əlavə dəyər vergisi, aksizlər, yol vergisi, mədən vergisi, sadələşdirilmiş vergi (yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə) ödəyiciləri bəyannamələrini təqdim etməlidirlər.

**A.NƏBİYEVA**

# Qeyri-neft sektoruna xarici sərmayə qoyuluşu artacaq

**İkiqat vergitutmanın aradan qaldırılmasına dair sazişin qüvvəyə minməsi fransalı sərmayəçilərin Azərbaycan iqtisadiyyatına marağının daha da artmasına əsaslı zəmin yaradıb.**

Azərbaycanda azad biznesin inkişafına yaradılan süni maneələrin aradan qaldırılması və əsassız yoxlamaların dayandırılması, idxal-ixrac əməliyyatlarının asanlaşdırılması, sahibkarların hüquqlarının qorunmasına xidmət edən qanunların qəbul olunması, xidmətlərin elektronlaşdırılması, şəffaflığın təmin edilməsi və digər islahatlar Fransa iş adamları tərəfindən müsbət dəyərləndirilib. Ölkəmizdə səfərdə olan Fransa Sahibkarlar Təşkilatının - MEDEF-in Biznes Şurasının prezidenti xanım Mari-Anj Döbon bildirib ki, Azərbaycan hökuməti tərəfindən sərmayə axınının stimullaşdırılması və daşınma xərclərinin aşağı salınması ilə bağlı qəbul edilən qərarlar fransız şirkətlərin də marağındadır və onlar bu imkanlardan yararlanmaq niyyətindədirlər. Xanım Döbon bildirib ki, Fransa ilə Azərbaycan arasında enerji sahəsində yaxşı əlaqələr mövcuddur, neft və qaz, kosmik sənaye sahələrində fransız şirkətləri fəal rol oynayırlar. Azərbaycanla qeyri-neft sahələrində birgə layihələr həyata keçirmək üçün yaxşı imkanlar var. Hazırda yeni şəraitə uyğun olaraq fransız sərmayələrinin qeyri-neft sektoruna yönəldilməsi ilə əlaqədar işgüzar görüşlər keçirilir. Bu sahədə fəal rol oynayan MEDEF turizm, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə, avtomobil istehsalı, infrastruktur sahələrində investisiyalar yatırmağı prioritet hesab edir. Azərbaycanda yeni yaradılan sənaye texnoparkları da fransızlar üçün cəlbedicidir və bu sahədə ölkənin tanınmış «Thales Group» və «Air Liquied» şirkətləri Sumqayıt Kimya Sənaye Parkında birgə layihənin icrasına başlamaq niyyətindədir. «Thales Group» şirkətinin baş direktoru Jan Bernar Lev bildirib ki, sənaye texnologiyaları parklarına tətbiq olunan əlverişli investisiya və vergi rejimi onlarda maraq yaradıb və tərəflər arasında qarşılıqlı əməkdaşlığa dair memorandum imzalanıb. M.Döbon hazırkı səfərin Fransa iş adamlarına Azərbaycanın biznes və investisiya imkanları ilə daha yaxından tanış olmaları üçün yaxşı fürsət yaratdığını, birgə əməkdaşlığın genişləndirilməsi üçün mövcud potensialın qiymətləndiriləcəyini bildirib.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri Rüfət Məmmədov qeyd edib ki, Azərbaycan-Fransa iqtisadi əlaqələri müxtəlif sahələri əhatə edir. Ölkələr arasında ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin qüvvəyə minməsi, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada qısa müddət ərzində həyata keçirilməsi, sahibkarlıq fəaliyyətinə başlamaq üçün prosedurların asanlaşdırılması, digər xarici investorlar kimi, fransalı sərmayəçilərin də respublikamızın iqtisadiyyatına olan marağının daha da artmasına əsaslı zəmin yaradıb. Hazırda Azərbaycanda 40-dan çox Fransa şirkəti fəaliyyət göstərir, onların ölkə iqtisadiyyatına yatırdıqları sərmayələrin həcmi 2,5 milyard dollara yaxındır. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2015-ci ildə 1,1 milyard dolları ötüb. Qarşıdakı illərdə bu rəqəmin daha da artacağı proqnozlaşdırılır.



R.Məmmədov qeyri-neft sektoruna xarici sərmayədarların, o cümlədən fransalı investorların cəlb edilməsi üçün təşviqedici addımlar atılacağını bildirib. Qeyd edib ki, son 15 il ərzində Azərbaycan iqtisadiyyatına 200 milyard dollardan artıq sərmayə yatırılıb ki, bunun yarısı xarici investisiyalardır. Həmin sərmayələrdə fransızların da payı az deyil. Hazırda Azərbaycan iqtisadiyyatı yeni şəraitə uyğun inkişaf edir, hökumət qeyri-neft sektoruna daha çox diqqət yönəldib və bu sektor ümumi daxili məhsulun təxminən 70 faizini təşkil edir. Hökumət tərəfindən 2017-2018-ci illər qeyri-neft sektoruna daha çox sərmayələrin yönəldilməsi planlaşdırılıb. Bu məqsədlə xarici sərmayəni təşviq etmək üçün ticarət əməliyyatlarının daha da liberallaşdırılması, idxal-ixrac əməliyyatlarının təkmilləşdirilməsi, Rəqabət Məcəlləsinin qəbul olunması nəzərdə tutulur.

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Gürcüstanın paytaxtı Tbilisi şəhərində Şərq-Qərb enerji dəhlizinin 20 illiyinə həsr olunan toplantı keçirilib.

Yunanıstanın Saloniki şəhərində TAP qaz-boru kəmərinin inşasının açılış mərasimi olub.

«Malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə elektron gömrük bəyannaməsinin qəbulu üzrə inzibati reqlament» təsdiq edilib.

Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Bakıda Azərbaycan-İran biznes forumu keçirilib.

Tehranda Azərbaycan və İranın Mərkəzi bankları arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

Sabah Bakı Ekspo Mərkəzində regionun qida sənayesi üzrə əsas tədbiri - Azərbaycan Beynəlxalq «Qida sənayesi» «WorldFood Azerbaijan 2016» sərgisi keçiriləcək.

Azərbaycan sahibkarları «Uzbekistan Agrominitech Expo-2016» sərgisinə dəvət alıblar.

# İcbari tibbi sığorta

Azərbaycanda icbari tibbi sığorta sistemi üzərində aparılan işlər yekunlaşmaq üzrədir. Sistemin fəaliyyətə başlama mexanizminin bəzi detalları artıq məlumdur. Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Monitorinq, təhlil, informasiya texnologiyaları şöbəsinin müdiri İsa Əliyev bildirib ki, Azərbaycan vətəndaşı olan və Azərbaycanda yaşayan hər bir şəxs icbari tibbi sığortadan yararlana biləcək. Qeyd olunub ki, bu məsələ ilə bağlı öncə icbari tibbi sığorta paketinə hansı xidmətlərin daxil olacağı müəyyənləşdirilməli, daha sonra xidmətlərin dəyəri hesablanmalıdır: «Üçüncüsü, bu xidmətlərdən yararlanacaq şəxslərin sayı hesablanmalıdır. Buna uyğun olaraq icbari tibbi sığorta haqqı müəyyənləşdirilə bilər. Ancaq ümumi yanaşma belədir ki, insanların sığorta ödənişləri onları yoxsullaşma riskindən azad etsin, işəgötürənlər tərəfindən ödənişlərin edilməsi süni işsizlik yaratmasın. Eyni zamanda, dövlətdən ayrılan vəsaitlər də tibbi xidmət xərclərinin qarşılanması üçün müvafiq həcmdə olmalıdır». Şöbə müdiri vurğulayıb ki, ödəmə qabiliyyətinə malik əhali tibbi sığort xərclərini özü ödəyəcək, yalnız müəyyən əhali qrupları üçün dövlət tərəfindən vəsaitlərin cəlb edilməsi nəzərdə tutula bilər: «Bütün bu məsələlər tam işlənib hazırlandıqdan və tətbiqi mexanizmi müəyyən edildikdən, eləcə də hesablamalar yekunlaşdıqdan sonra dəqiq məlum olacaq».

Sığorta üzrə mütəxəssis Xəyal Məmmədxanlı «İcbari sığorta haqqında» Qanunun tətbiqi mexanizmində mövcud problemlər barədə bildirib ki, təəssüf ki, bu məsələ 17 il ərzində dayandığı yerdən tərpənməyib: «İcbari tibbi sığortaya keçid prosesində 3 tərəf iştirak edir; büdcə (hökumət), səhiyyə sistemi və sığorta təşkilatları. Bir çoxları hesab edir ki, sığorta şirkətləri bu prosesə hazır deyil. Mənim mövqeyimə görə isə prosesə tam hazır olan yeganə tərəf sığorta sistemidir. Səhiyyə sistemində olan bütün tibb müəssisələri, xəstəxanalar, klinikalar tam şəffaf fəaliyyətə keçməli, idarəetmə sistemlərini təkmilləşdirməli, bütün göstərdikləri xidmətlər üçün rəsmi olaraq qiymətlər müəyyən etməlidirlər. Özəl tibb müəssisələrinin əksəriyyətində bunlar mövcud olsa da, dövlət xəstəxanaları və müəssisələri bundan çox uzaqdırlar, xüsusilə də bölgələrimizdə ciddi problemlər hökm sürür. Büdcəyə gəldikdə isə qeyd edim ki, bugünkü reallıqda işləməyən əhali üçün büdcədən icbari tibbi sığortanın həyata keçirilməsi üçün təxminən 1 milyard manata yaxın vəsaitin hər il ayrılması inandırıcı görünmür».

Beləliklə, məntiqi sual yaranır: Azərbaycanda tibbi xidmət pulsuz olduğu halda, icbari tibbi sığortaya ehtiyac varmı? Yəni bu iki anlayış bir-birinə zidd deyilmi? Mütəxəssin fikrincə, 2008-ci ildən tibbi xidmətlərin pulsuz olması barədə qərar qəbul edilsə də, bu, hələ də kağız üzərində qalıb: «İcbari tibbi sığortanın tətbiqi üçün həmin qərar qüvvədən düşməlidir. İkincisi, sığorta təşkilatlarının tibb müəssisələrinə göstərilən xidmətlərin haqqını ödəyə bilmələri üçün göstərilən bütün xidmətlərə görə onlara hesab-faktura təqdim edilməlidir. Əgər tibbi xidmət pulsuzdursa, o zaman sığorta şirkətləri bu müəssisələrə nəyin haqqını ödəməlidirlər?»...

İcbari tibbi sığorta səhiyyənin maliyyələşdirilməsinin en ideal və proqressiv yoludur. Hər şeydən əvvəl, icbari tibbi sığorta proqramına daxil ediləcək xəstəliklərin, müayinə və tibbi xidmətlərin siyahısı bəlli olmalıdır. Sığorta məbləği və sığorta haqqı barədə ortaq fikrə gəlinməlidir. İllərlə müzakirə mövzusu olunduğuna baxmayaraq, hələ də işləyən əhali üçün sığorta haqqının necə ödəniləcəyi, işəgötürənlə işçi arasında necə bölünəcəyi, sığortası dövlət büdcəsindən maliyyələşdiriləcək əhali üçün bunun necə baş verəcəyi barədə çoxlu suallar mövcuddur. Qanun nə qədər tez tətbiq edilərsə, dövlət büdcəsindən səhiyyəyə ayrılan və bir çox hallarda aqibəti məlum olmayan vəsaitlərə də o qədər qənaət edilər, səhiyyə təşkilatlarının xidmət səviyyəsi azad rəqabət mühitində gündən-günə yüksəlmiş olar.



**Fəxriyyə İKRAMQIZI**

# İslahatlar əsaslı yüksəlişə gətirib çıxaracaq

Yeni iqtisadi inkişaf modeli çərçivəsində aparılan islahatlar cari ildə qeyri-neft sektorunda kifayət qədər pozitiv nəticələrin, 2017-2018-ci illərdə isə əsaslı yüksəlişin əldə olunmasına gətirib çıxaracaq.

«Ekonomiks» Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri, iqtisad elmləri doktoru, professor Fikrət Yusifov hesab edir ki, dünya bazarlarında neftin qiymətlərinin kəskin aşağı düşməsinə Azərbaycan hökumətinin cavabı kifayət qədər tutarlı oldu. Hökumət indiyə qədər qazanılmış iqtisadi uğurları neft amili olmadan da eyni qaydada davam etdirmək iqtidarında olduğunu hər kəsə göstərə bildi. Bir sözlə, yaranmış vəziyyətdə, real sektorun sürətli inkişafını təmin edə biləcək yeni bir islahat modeli ortaya qoyuldu. Bu yol çətin bir yoldur, lakin o, ölkə iqtisadiyyatının tam dayanaqlı olmasına aparan doğru bir seçimdir. Yeni iqtisadi islahat modeli kifayət qədər geniş əhatəlidir. Orada iqtisadiyyatın bütün sahələrinin maneəsiz inkişafına tam münbit bir şərait yaradılması nəzərdə tutulub.

Yeni iqtisadi islahat modelinin reallaşdırılması nəzərdə tutan və keçən ilin son aylarından başlayaraq ardıcıl şəkildə qəbul olunan qərarlar, artıq öz bəhrəsini verməyə başlayıb. Bu gün hökumət qeyri-neft sənayesinin, aqrar sahənin, nəqliyyat və tikinti sektorunun, turizmin inkişafına geniş bir meydan açan qərarlarla yanaşı, hər bir sahənin inkişafı qarşısında maneə ola biləcək bütün neqativ məqamların da aradan qaldırılması istiqamətində çox qətiyyətli addımlar atır. İllərlə kök salmış inhisarçılığın ləğvi, rüşvət və korrupsiyaya qarşı - «heç kim toxunulmaz ola bilməz» devizi ilə aparılan mübarizə, artıq öz bəhrəsini verməyə başlayıb. Zaman-zaman şəhərə qazanc dalınca gəlmiş kəndli, indi geriyə - kəndə üz tutub. Çünki o, artıq dövlətinin ona maneəsiz bir fəaliyyət meydanı açdığını görür. Biznes üçün yaradılan maneəsiz meydan ölkəmizə xarici iş adamlarının da marağını kifayət qədər artırıb. Belə münbit şərait, bundan sonra xarici investisiyaların daha böyük axınını təmin edəcək. Bu gün xarici iş adamı Azərbaycanda təkcə neft-qaz sektoruna deyil, real sektora investisiyalar yatırmağa tam maraqlıdır. Dövlətin apardığı islahatlar bu investisiyaları daha da cəlbedici edə bildi.

Mayın 11-də Fransa Sahibkarlar Təşkilatının - MEDEF-in nümayəndə heyəti ilə görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi «biz artıq neftdən sonrakı dövrə qədəm qoymuşuq», «öz iqtisadi strategiyamızı elə formalaşdırmalıyıq ki, sanki bizdə neft və qaz yoxdur» kimi fikirləri xarici investorları qeyri-neft sektoruna daha çox sərmayə yatırmağa çağırış idi. Artıq bu sektora sərmayələr qoymaqda maraqlı olduqlarını bildirən tək Fransız iş adamları deyil. Son zamanlar başqa inkişaf etmiş ölkələrin də iş adamları Azərbaycanda real sektora kifayət qədər investisiyalar yatırtmaq istəklərini bəyan ediblər. Bu isə bütövlükdə çox yaxşı haldır. Çünki ölkə iqtisadiyyatının real sektorunun sürətli inkişafının təmin edilməsində xarici sərmayələrin rolu kifayət qədər böyük olacaq. Bir sözlə, yeni iqtisadi inkişaf modeli çərçivəsində aparılan islahatlar cari ildə qeyri-neft sektorunda kifayət qədər pozitiv nəticələrin, 2017-2018-ci illərdə isə əsaslı yüksəlişin əldə olunmasına gətirib çıxaracaq.

# Fermerlərin məhsulları sığortalanacaq

Azərbaycan hökuməti yaxın zamalarda kənd təsərrüfatında sığorta mexanizminin tətbiqinə hazırlaşır. Kənd Təsərrüfatı Nazirliyi ilə Maliyyə Nazirliyinin birgə layihəsinə əsasən, bu sahədə sığorta sisteminin təşkili və təkmilləşdirilməsi nəzərdə tutulur. «Kənd təsərrüfatında sığortanın dövlət dəstəyi vasitəsilə stimullaşdırılması haqqında» qanun layihəsi xarici ölkələrin təcrübəsinə əsaslanır. Bu sahədə daha çox Türkiyə təcrübəsi - TARSİM modeli öyrənilib. Prosesdə sığorta şirkətləri və dövlətin birgə iştirakı planlaşdırılır. Layihəyə əsasən, aqrar sahənin sığortalanmasında «sığorta yığımı» mexanizmi yaradılacaq. Bu modelə görə, sığorta şirkətləri topladıqları sığorta haqlarını sığorta fonduna təhvil verəcək. Şirkətlər topladıqları sığorta haqları müqabilində komissiya alacaq. Sığorta şirkətləri sığorta yığımının agentinə çevriləcək.

Kənd təsərrüfatı üzrə mütəxəssis İmran Məmmədovun fikrincə, aqrar sahə riskli hesab edildiyindən sığorta ilə dövlət bütün yükü tamamilə öz üzərinə götürmək istəmir. İstehsalçıların isə sığorta sistemi olmadığına görə, əkinə marağı azdır. Hazırda qüvvədə olan «Kənd təsərrüfatının sığortası haqqında» Qanuna əsasən, 9 növ məhsula görə sığortanın verilməsi nəzərdə tutulub. Mülkiyyətçilərə dəyən zərərin 50%-i dövlət vəsaiti hesabına ödənilir. Amma sığorta mexanizmi mürəkkəb olduğundan sığortaya görə verilən vəsaitin ünvanına çatdırılması şübhə doğurur. Bəzən sığorta hadisəsinə görə vəsaitin verilməsi bürokratik əngəllərlə yubadılır, çox vaxt istehsalçı bezib sığorta pulundan imtina edir. Ona görə də yeni sığorta mexanizminin tətbiqi gündəmə gəlib.

Əsas problemlərdən biri bu sahədə qiymətləndirmə apara biləcək mütəxəssislərin olmamasıdır. Problemin aradan qaldırılması üçün Beynəlxalq Maliyyə Korporasiyası Kənd Təsərrüfatı Nazirliyinə dəstək göstərəcək. Korporasiyanın ölkəmizdəki nümayəndəsi Aliyə Əzimova bildirib ki, aqrar sığorta mexanizminin öyrənilməsi məqsədilə «Aqromaliyyə» layihəsi həyata keçiriləcək.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Mühasibat və vergi uçotunda təmir xərclərinin fərqli xüsusiyyətləri

Mühasibat və vergi uçotunda bəzi (çox az sayda) məsrəf növləri vardır ki, belə məsrəflərin xərc kimi tanınmasında (xərclərə silinməsində) xüsusi qaydalar tətbiq olunur, onlardan biri də təmir xərcləridir. Bəzən buna təmir məsrəfləri də deyirlər.

«Məsrəf» və «xərc» ifadələri eyni mənaları daşımasına baxmayaraq, uçot zamanı çəkilmiş xərclər mənfəət və zərər haqqında hesabatda tanınmasına, yəni xərclərə aid edilənə qədər «məsrəf» kimi saxlanılır. Təmir xərclərinə uzunmüddətli maddi aktivlərin təmiri ilə əlaqədar məsrəflər aid edilir. Lakin «təmir xərcləri» anlayışı mühasibat və vergi uçotu baxımından fərqlənirlər. Əsas məqamları nəzərə almaqla, müqayisəli formada təmir xərclərini təhlil edək.

*Təmir xərcləri ilə bağlı qanunvericilik*

Vergi uçotunda təmir xərcləri ilə bağlı tələblər Azərbaycan Respublikasının Vergi Məcəlləsində (maddə 115) əks olunub. Mühasibat uçotunda isə təmir xərcləri ilə bağlı əsas tələblər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının «Q-19» nömrəli «23» sentyabr 2014 -cü il tarixli Qərarı ilə təsdiq olunmuş «Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair Qaydalar»a (irəlidə «Qaydalar» adlanır) uyğun həyata keçirilir.

*Təmir xərcləri çəkilən aktivlər (əşyalar)*

Vergi uçotunda təmir xərcləri «Əsas vəsaitlər» anlayışı ilə təsnifləşdirilən maddi əşyalara tətbiq olunur. Əsas vəsaitlər - istifadə müddəti bir ildən və dəyəri 500 manatdan çox olan, bu Məcəllənin 114-cü maddəsinə əsasən amortizasiya edilməli maddi aktivlərdir. Aydın olur ki, alış (mədaxil) dəyəri 500 manatdan az olan maddi aktivlər vergi uçotu məqsədləri üçün əsas vəsait hesab edilmədiyinə görə, belə aktivlərin təmir xərclərinə Vergi Məcəlləsinin 115-ci maddəsi tətbiq olunmur, yəni həmin aktivlərin təmir xərclərinin gəlirdən çıxılan xərclərə aid edilməsində hər hansı məhdudiyyət nəzərdə tutulmur.

«Mühasibat uçotunda Qaydalar»a görə, təmir xərcləri «Əsas fondlar» anlayışı ilə təsnifləşdirilən uzunmüddətli aktivlərə tətbiq olunur. Əsas fondlar - təşkilatların təsərrüfat fəaliyyətində əmək vasitəsi kimi istifadə müddəti bir ildən artıq olan, istismar zamanı öz formasını dəyişməyən, lakin köhnəlməyə məruz qalan, təşkilat tərəfindən malların istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi və ya onun idarə olunması məqsədləri üçün əldə edilmiş, habelə təsərrüfat üsulu ilə yaradılmış aktivlərdir. Burada maddi aktivin əsas fondlara aid edilməsi üçün dəyərinin minimum məbləği meyar deyildir. Hətta dəyəri 500 manatdan az olan maddi aktiv «əsas fondlar» anlayışına uyğun gəlirsə, belə aktivlərin təmir xərclərinin tanınması «Qaydalar»ın 3-cü bəndi tətbiq olunmaqla məhdudlaşdırıla bilər.

*Təmir xərclərinin növləri*

Vergi uçotunda təmir xərcləri hissələrə bölünməyib, vahid formada təmir xərcləri kimi qəbul edilib. Mühasibat uçotunda isə təmir xərcləri iki hissəyə bölünüb. Təmir məsrəfləri əsaslı təmir məsrəflərindən və cari təmir məsrəflərindən ibarətdir. Əsaslı təmir məsrəfləri - əsas fondların istismar müddətinin uzadılması məqsədilə smeta sənədləri əsasında hesabat dövründə bir dəfədən çox olmamaq şərti ilə yerinə yetirilən işlər üzrə onların tam və ya əhəmiyyətli dərəcədə bərpasına, o cümlədən tam aşınmış (köhnəlmiş), sıradan çıxmış əsas fondların struktur komponentlərinin bütün hissələrinin sökülməsinə və dəyişdirilməsinə çəkilmiş məsrəflərdir. Cari təmir məsrəfləri isə - əsas fondların hər bir kateqoriyasının saxlanılması, istismarı və vaxtından əvvəl köhnəlməsinin qarşısının alınması üçün (o cümlədən ayrı-ayrı hissələrinin dəyişdirilməsi, bərpası, rənglənməsi, yağlanması, sazlanması) üçün onlara texniki baxışın keçirilməsi və texniki xidmətin göstərilməsi ilə bağlı olan məsrəflərdir.

*Təmir məsrəflərinin xərc kimi tanınması (xərclərə silinməsi)*

Vergi uçotunda bütün təmir xərclərinə vahid formada Vergi Məcəlləsinin 115-ci maddəsi tətbiq olunur və bütün təmir xərclərinə, hətta əsaslı təmir xərclərinə də məhdudlaşdırmalar tətbiq olunur. Mühasibat uçotunda isə təmir məsrəfləri iki hissəyə bölündüyündən, həmin məsrəflərin xərc kimi tanınmasında fərqlər vardır. Əsaslı təmir məsrəfləri əsas fondlar üzrə bütövlükdə kapitallaşdırılmış məsrəflərə aid edilir, yəni birbaşa xərc kimi tanınmadan əsas fondların dəyərinin artırılmasına yönəldilir və gələcəkdə amortizasiya şəklində xərclərə aid edilməsi mümkün olur. Bu təmir xərclərinə hər hansı məhdudlaşdırma tətbiq edilə bilməz. Mühasibat məqsədləri üçün yalnız cari təmir məsrəflərinin məhdudlaşdırılması nəzərdə tutulub. Cari təmir məsrəflərinin məhdudlaşdırılan hədd daxilində hissəsi (norma daxilində cari təmir məsrəflərinin məbləği) cari ilin təmir xərcləri kimi tanınır (xərclərə silinir), məhdudlaşdırılan həddən yuxarı hissəsi isə əsas fondların dəyərinin artırılmasına yönəldilir.

*Təmir xərclərinin məbləğinin məhdudlaşdırılması normaları*

Vergi Məcəlləsinin 115.1-ci maddəsinə görə, vergi uçotunda hər il üçün gəlirdən çıxılmalı olan təmir xərclərinin məbləği əsas vəsaitlərin hər bir kateqoriyasının əvvəlki ilin sonuna qalıq dəyərinin aşağıdakı həddi ilə məhdudlaşdırılır:

- binalar, tikintilər və qurğular - 2%;
- maşınlar, avadanlıq və hesablama texnikası - 5%;
- nəqliyyat vasitələri - 5%;
- digər əsas vəsaitlər - 3%;
- köhnəlmə (amortizasiya) hesablanmayan əsas vəsaitlər üzrə - sıfır (0) faiz.

Təmir xərclərinin faktiki məbləği bu hədd ilə müəyyənləşdirilən məbləğdən az olduqda, gəlirdən təmir xərclərinin faktiki məbləği çıxılır.

Mühasibat uçotunda isə Qaydaların 3-cü bəndinə görə, cari təmir məsrəflərinin məbləği əsas fondların hər bir kateqoriyasının əvvəlki ilin sonuna balans dəyərinin aşağıdakı həddi ilə məhdudlaşdırılır:

- tikililər (binalar, qurğular, ötürücü qurğular və onların struktur komponentləri) - 2%;
- maşın və avadanlıqlar - 5%;
- nəqliyyat vasitələri - 5%;
- dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə nəqliyyat vasitələri - aylıq yürüş həddinə uyğun olaraq, yanacaq sərfinin baza xətt normalarına əsasən hesablanmış yanacaq xərcinin 30 faizi məbləğində;
- sair torpaq, tikili və avadanlıqlar - 3%;
- daşınmaz əmlaka investisiyalar - 2 %;
- amortizasiya hesablanmayan əsas fondlar - 0%.

Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən orqanlarda cari təmir məsrəfləri üzrə müəyyən olunmuş müvafiq hallarla bağlı bu Qaydaların 3.2-ci bəndində göstərilmiş məhdudiyyətlər nəzərə alınmır və həmin məsrəflər Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə tənzimlənir.

# İpoteka kreditləri ilə mənzil alanların sayı artır

Azərbaycan İpoteka Fondu ölkədə ipoteka kreditləşməsi mexanizminin beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi və bu kreditlərdən faydalanan şəxslərə xidmət səviyyəsinin yüksəldilməsi, informasiya texnologiyalarının geniş tətbiqinin reallaşdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirir. Artıq bir neçə ildir istifadəyə verilən «Elektron ipoteka sistemi» (EİS) bu sahədə əhəmiyyətli rola malikdir.

İpoteka bazar iştirakçıları - müvəkkil kredit təşkilatları, sığorta və qiymətləndirici şirkətlərlə bütün texniki prosedurlar sistem vasitəsilə real vaxt rejimində həyata keçirilir. Eyni zamanda, EİS əhalinin ipoteka kreditləri üzrə müvəkkil kredit təşkilatlarına müraciətlərini tam avtomatlaşdırıb ki, bu da öz növbəsində kreditləşmə prosesinin sürətli rəsmiləşdirilməsinə, şəffaflığın artırılmasına, növbəliliyin təmin olunmasına, vaxtdan səmərəli istifadəyə və nəticədə işin daha yüksək səviyyədə aparılmasına xidmət edir. «Elektron ipoteka sistemi»nin Mərkəzi Bankın vergi, rüsum, icarə haqqı və digər kütləvi ödənişlərinin toplanılması üçün yaradılmış «Hökumət ödəniş portalı»na inteqrasiyası nəticəsində ipoteka kreditlərinin aylıq ödənişləri artıq 1 ildən çoxdur ki, real vaxt rejimində aparılır.

Layihənin funksional davamı olaraq, ikinci faza çərçivəsində ipoteka kreditləri üzrə sığorta ödənişlərinin real vaxt rejimində həyata keçirilməsi də başa çatdırılıb. Sistem hər bir ipoteka ödəyicisinə əmlak və həyat sığortası ödənişlərini birbaşa «Hökumət ödəniş portalı»nda aparılmasına imkan yaradır. Sistem borcalana sığorta ödənişlərini hissə-hissə və ya illik həyata keçirmək seçimini də təklif edir. Bununla yanaşı, borcalanın sığorta öhdəliklərinin vaxtı keçdiyi təqdirdə, sistem ilkin olaraq məhz sığorta ödənişlərinin aparılmasını tələb edəcək, yalnız sığorta ödənişi aparıldıqdan sonra borcalan aylıq ödənişini həyata keçirə biləcək.

Qeyd edək ki, ipoteka krediti ilə maraqlan hər bir vətəndaş Elektron İpoteka Portalı (e-ipoteka.az) vasitəsilə ipoteka kreditləşməsi üzrə normativ sənədlərlə, ipoteka kreditləşməsinin şərtləri, AİF-in müvəkkil təşkilatlarının siyahısı ilə tanış ola, ala biləcəyi ipoteka kreditinin məbləğini hesablamaq üçün ipoteka kalkulyatorunun xidmətlərindən istifadə edə, eləcə də kredit borcu, ödənişlər və digər statistik məlumatlarla tanış ola bilər.

Son 5 ildə yenidən maliyyələşdirilmiş ipoteka kreditlərinin dinamikasına nəzər salaq. Əgər 2011-ci ildə yenidən maliyyələşdirilmiş ipoteka kreditləri 253 milyon manat təşkil edirdisə, 2012-də bu göstərici 344, 2013-də 431, 2014-də 557, 2015-də isə 671 milyon manat olub. Bu ilin birinci rübünün göstəricilərinə görə isə yenidən maliyyələşdirilmiş ipoteka kreditləri 689 milyon manat təşkil edib. 2011-ci ildə verilən ipoteka kreditlərindən 230 milyon, 2012-də 297 milyon, 2013-də 351 milyon, 2014-də 435 milyon, 2015-də 489 milyon manatı yenidən maliyyələşdirilmiş adi kreditlər üzrə olub. Yenidən maliyyələşdirilmiş güzəştli kreditlər isə 2011-ci ildə 23, 2012-də 47, 2013-də 80, 2014-də 130, 2015-də 182 milyon manat təşkil edib. Bu ilin birinci rübü ərzində isə yenidən maliyyələşdirilmiş adi ipoteka kreditlərinin həcmi 500, güzəştli ipoteka kreditlərinin həcmi 188 milyon manat olub.

Bakı şəhərində ipoteka kreditlərinin inzibati rayonlar üzrə bölgüsü (31.03.2016)




Yenidən maliyyələşdirilən ipoteka kreditlərinin illər üzrə həcmi (adi və güzəştli, mln. manat)




Yenidən maliyyələşdirilmiş ipoteka kreditləri 2011-ci ildə 8,833 ədəd olduğu halda, 2015-ci ildə bu göstərici 17,975 ədəd təşkil edib. Bu ilin 3 ayı ərzində yenidən maliyyələşdirilmiş ipoteka kreditləri 17,993 ədəd olub. Güzəştli ipoteka kreditləri isə 2011-ci ildə 711 idisə, ötən ilin nəticələrinə görə bu göstərici 4,685 ədəd olub. Bu ilin 3 aylıq göstəricisinə görə isə yenidən maliyyələşdirilmiş güzəştli ipoteka kreditləri 4,825 ədəd olub.

İpoteka kreditlərinin bölgüsünə nəzər saldıqda isə liderlik paytaxtın Xətai rayonunda müşahidə olunur: 22,7%. Sonrakı yerlərdə isə Yasamal (15,6%), Binəqədi (14%), Nəsimi (11,2%), Nizami (9,5%), Nərimanov (7,9%), Suraxanı (6,6%), Sabunçu (4,6%), Səbail (3,7%), Qaradağ (3%), Xəzər (1,3%) rayonları qərarlaşıb.

İlin birinci rübü ərzində ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün cəlb edilən vəsaitlərinn 41,5%-i dövlət büdcəsi, 58,5%-i isə qiymətli kağızlar hesabına formalaşıb.

İpoteka krediti ilə mənzil alanların 31,6%-ni subaylar, 68,4%-ni evlilər təşkil edib, onların 16,5%-i qadın, 83,5%-i isə kişidir. Yaş bölgüsünə gəlincə, 33,7%-ni 18-29 yaş arası, 35,7%-ni 30-35, 30,6%-ni isə yaşı 36-dan yuxarı olanlar təşkil edib. Borcalanların 48,4%-i dövlət sektorunda, 51,6%-i isə özəl sektorda çalışır.

**AYTƏN**

# AYİB ölkəmizin maliyyə vəziyyətinə münasibət bildirib

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) dünya iqtisadiyyatında baş verən mürəkkəb qlobal iqtisadi proseslərin bir çox ölkələrin iqtisadi artımına, valyuta-maliyyə, qiymətli kağızlar bazarına təsir edəcəyinə dair yeni açıqlama ilə çıxış edib. Bankın yeni hesabatında əks olunan proqnozlara əsasən, Avropa və Asiya ölkələrinin əksəriyyətində cari ildə iqtisadi artım 2 dəfə aşağı düşəcək. Neft istehsal edən ölkələrin tədiyyə balansında müəyyən azalmaların baş verməsi də gözləniləndir. Azərbaycanda da iqtisadi artımın zəifləyəcəyi proqnozlaşdırılır. Bank analitikləri hesab edirlər ki, Azərbaycanda 2016-cı ildə qeyri-neft sektorunda artım baş verəcək, ümumi iqtisadiyatın artımı isə 2017-ci ildə 1% səviyyəsində proqnozlaşdırılır.

AYİB hesab edir ki, maliyyə-bank sektoruna təzyiqləri azaltmaq üçün hökumətin iqtisadi komandası təxirəsalınmaz addımları davam etdirməlidir. Dövlətin iqtisadi bloku koordinasiya olunmuş şəkildə fəaliyyət planına uyğun çevik addımlar atmalı, ehtiyat vəsaitləri vəziyyətə uyğun idarə etməli, habelə iqtisadi siyasətlə bağlı cavab tədbirlərinin daha da gücləndirilməsinə diqqəti artırmalıdır. İlk növbədə, iqtisadi siyasətin əsas prioriteti kimi fiskal konsolidasiya planının hazırlanması və həyata keçirilməsi vacibdir. Həmçinin valyuta bazarında çevik məzənnə rejiminə keçidə kömək etmək üçün pul siyasəti çərçivəsinin möhkəmləndirilməsi, maliyyə sektoruna nəzarətin gücləndirilməsi və iqtisadiyyatı daha çox şaxələndirmək naminə struktur islahatlarının həyata keçirilməsi nəzərdə saxlanılmalıdır. Bu məsələlərin həlli sayəsində yaranmış qlobal çağırışların öhdəsindən gəlmək mümkündür.

Avropa Bankı 2016-cı ildə dollar-manat münasibətlərinin proqnozlaşdırılmasının da çətin olduğunu bildirib: bu, yeni devalvasiyanın olub-olmayacağından və bazarda tələb-təklifin hansı formada tənzimlənməsindən asılı olacaq.

## vergi təqvimi

| MAY | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24/31 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

20 may - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (idman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Fransada vergi öhdəlikləri



Hər hansı ölkəyə köçüb orada məskunlaşarkən yaxından bələd olmaq lazım gələn ən vacib məsələlərdən biri də vergi öhdəlikləridir. Fransada isə bu məsələ daha aktualdır.

Fransanı çox vaxt vergilər ölkəsi adlandırırlar. Bu heç də təəccüblü deyil. Dünyanın romantika mərkəzi sayılan Fransada 200-ə yaxın vergi növü tətbiq olunur. Ölkənin hər bir vətəndaşının bu vergilər barədə məlumatlı olması vacibdir, çünki burada hər kəs ildə bir dəfə vergi bəyannaməsi doldurub müvafiq orqanlara təqdim etməlidir.

Fransada büdcə daxilolmalarının böyük hissəsi - təxminən 20 faizi əlavə dəyər vergisi (ƏDV) hesabına formalaşır. Kommunal xidmətlər, həyat üçün zəruri olan mallar, nəqliyyatın təmiri, mənzil şəraitinin yaxşılaşdırılması və tibbi preparatlar vergiyə cəlb olunur. Gəlir vergisini ödəmək fransızların həyatının bir hissəsini təşkil edir. Burada gəlir vergisinin hesablanmasının xüsusi alqoritmi var: vətəndaşın yaşı, gəlir səviyyəsi, sosial vəziyyəti və ailə tərkibi nəzərə alınır. Fransada gəlir vergisinin dərəcəsi 0- 45 faiz arasında dəyişir. Mürəkkəbliyinə baxmayaraq, bu sistem çox çevikdir və hər bir fransızın vəziyyətini nəzərə almağa imkan verir.

Vergidən yayınma isə Fransada ciddi qanun pozuntusu hesab edilir və sərt cəzalandırılır. Lakin heç də hamı müstəqil şəkildə vergi sisteminin incəliklərindən baş aça bilmir. Ölkəyə təzə gələn və məskunlaşan insan mütləq vergi məsələlərini düzgün həll etmək, məsuliyyətlə qarşılaşmamaq üçün mütəxəssislə məsləhətləşməli, ixtisaslaşmış xidmətlərdən istifadə etməlidir. Vergi sahəsində ixtisaslaşmış «Konfrans» şirkətinin hüquqşünasları vergi bəyannaməsinin düzgün doldurulması və təqdim edilməsi barədə ilkin təlimatlar verirlər. Onlar öz müştərilərinə qanunun imkan verdiyi çərçivələr daxilində vergi yükündən azad olmaq üçün hüquqi yollar göstərirlər. Hüquqşünaslara ən çox müraciət olunan məsələlərdən biri əmlakın mirası ilə bağlıdır. Şirkət mütəxəssisləri vətəndaşlara miras sahibi olmaq üçün zəruri sənədlərin toplanılmasında və tərtib olunmasında kömək edirlər. «Konfrans» şirkətinin köməyinə yerli əhalidən daha çox təzə məskunlaşan insanların ehtiyacı olur. Dünyanın müxtəlif yerlərindən gəlmiş insanlara hüquqi yardım göstərmək üçün şirkətin tərkibində ixtisaslı tərcüməçilər həyati fəaliyyət göstərir. «Konfrans» şirkətinin mütəxəssisləri vergi məsələləri ilə yanaşı, sığorta ödənişləri üçün də öz yardımlarını təklif edirlər. Bundan başqa, şirkət nikah müqavilələrinin tərtib olunmasında və bağlanmasında, şirkətlərin qeydiyyata alınmasında, bank hesablarının açılmasında, investisiya qoyuluşu ilə bağlı məsələlər üzrə məsləhətlər verilməsində də müştərilərə kömək göstərirlər.

# QƏRİBƏ VERGİLƏR

**TARİX BOYU ADLARI İLƏ İNSANLARDA BƏZƏN TƏƏCCÜB, BƏZƏN TƏBƏSSÜM, BƏZƏN DƏ İSTEHZA DOĞURAN VERGİLƏR ÇOX OLUB. BU CÜR VERGİLƏR MÜXTƏLİF ÖLKƏLƏRDƏ İNDİ DƏ MÖVCUDDUR. «FULLPICTURE.RU» SAYTINDA HAZIRDA QÜVVƏDƏ OLAN 10 QƏRİBƏ VERGİNİN SİYAHISI AÇIQLANIB.**

**ABŞ: «qaralma vergisi»**

Hökumətin öz vətəndaşlarının sağlamlığının qayğısına qalmaq məqsədilə həyata keçirdiyi islahatlar çərçivəsində müxtəlif tədbirlər müəyyənləşdirib. Bunlardan biri də «qaralma vergisidir». Bu gün solyaridə qaralmaq istəyən hər bir ABŞ vətəndaşı xidmətin 10 faizi həcmində əlavə ödəniş etmək məcburiyyətindədir.

**Belçika: «manqal vergisi»**

3,5 milyon sakini olan Valloniya şəhərinin yerli hökuməti 2007-ci ildə qlobal istiləşməyə qarşı mübarizə məqsədilə manqalda hazırlanan yeməklər üçün vergi qoymağı qərara alıb. Belə hesab edilir ki, manqalda yemək hazırlanarkən atmosferə 50-100 qram istixana qazı atılır. Ona görə də Belçikanın bu regionunun hər bir sakini öz həyətində manqal qalamazdan əvvəl 20 avro ödəniş etməlidir. Valloniya hakimiyyəti tərəfindən bu qanuna riayət olunması üçün ciddi yoxlamalar aparılır. Yoxlamalar zamanı hətta xüsusi kameralarla təchiz edilmiş vertolyotlardan da istifadə olunur.

**Estoniya: «gövşəmə vergisi»**

Bunu indiyə qədər dünyada tətbiq olunan ən cəfəng vergilərdən biri hesab etmək mümkündür. 2008-ci ildə Estoniya hökuməti inək saxlayanlar üçün xüsusi vergi tətbiq etmək qərarına gəlib. Qanun layihəsini hazırlayanların rəyinə görə, inəklər gövşədikləri zaman mədələrindən çoxlu qaz ixrac edir və bununla havanı korlayırlar. O da maraqlıdır ki, bu qəribə vergi digər heyvandarlıq növləri ilə məşğul olan insanlara aid edilmir, hədəfdə yalnız inəklərdir.

**CAR: «peşə təlimi vergisi»**

Cənubi Afrika Respublikasında muzdlu işçi saxlayan bütün sahibkarlar bu vergini ödəmək məcburiyyətindədirlər. Verginin dərəcəsi işçilərin əməkhaqqının 1 faizini təşkil edir. Bu verginin tətbiq olunmasında məqsəd işçilərin, xüsusilə də qaradərili əhalinin peşə səriştələrinin inkişaf etdirilməsidir.

**Yunanıstan: «hovuz vergisi»**

Bu ölkədə şəxsi evlərin həyətindəki hovuzlar dəbdəbəli həyat elementi sayılır. Ona görə də hovuzu olan hər bir evin sahibi büdcəyə ildə 800 avro vergi ödəmək məcburiyyətindədir. Afinanın vergini ödəmək istəməyən bir çox sakinləri öz hovuzlarının üstünü ot rəngli çadırlarla örtürlər.

**Avstriya: «gips vergisi»**

Avstriyanın Alp dağları xizək və ya snoubortla sürüşməyi sevənlər üçün ideal məkan sayılır. Bununla belə, bu cəlbedicilik müəyyən problemlər də yaradır. Hər il ölkədə 150 min sürüşmə həvəskarı sümük sınığı və digər xəsarətlərlə xəstəxanalara yerləşdirilir. Buna görə də hökumət turistlərdən «gips vergisi» deyilən ödəniş tutmağı qərara alıb. Bu ödəniş otel və pansionatların sahibləri tərəfindən yığılır.

**Balear adaları: «günəş vergisi»**

Mayorka, Menorka və digər Balear adalarına səfər edən bütün turistlər bu vergini ödəməyə borcludurlar. Ödəniş o qədər də yüksək deyil: gündə 1 avro. Əldə olunan pulları yerli hakimiyyət orqanları turist infrastrukturunun təkmilləşdirilməsinə xərcləyir. 2012-ci ilin məlumatına görə, il ərzində bu adalara 10 milyondan artıq turist gəlib. Bu statistikanı nəzərə alanda yerli büdcənin «günəş vergisi»ndən daxilolmalarının o qədər də az olmadığı aydın olur.

**Çin: «çubuq vergisi»**

Çində ənənəvi olaraq yemək zamanı çəngəl əvəzinə xüsusi çubuqlardan istifadə olunur. Ölkədə hər il istifadə edilən birdəfəlik çubuqların sayı 45 milyarda çatır və bunların istehsalı üçün 25 milyon ağac kəsilir. Buna görə də hökumət birdəfəlik yemək çubuqlarına 5 faizlik xüsusi vergi tətbiq edir. Bu addım əhalini plastik materiallardan düzəldilmiş davamlı şəkildə işlədilən çubuqlardan istifadəyə təhrik etmək üçün atılıb. Buna baxmayaraq, çinlilər dədə-baba qaydalarından əl çəkməyə həvəs göstərmirlər. Onlar üçün ənənə iqtisadi səmərəlilikdən daha üstündür.

**Venesiya: «kölgə vergisi»**

1993-cü ildə hökumət Venesiyaya məxsus əraziyə kölgə salan əmlak sahiblərinə - restoran və dükan işlədənlərə xüsusi vergi tətbiq etməyə başlayıb.

**Macarıstan: «çips vergisi»**

Bu verginin tətbiqi 2011-ci ilin sentyabrından qüvvəyə minib. Sağlamlıq üçün zərərli sayılan müxtəlif yeməklər, məsələn, çips, duzlu və şirin peçenyelər, qablaşdırılmış pirojna, eləcə də energetik içkilər üçün bu vergi tətbiq olunur. Macarıstan hökuməti bununla ölkə vətəndaşlarının daha sağlam qidalanmaya təşviq olunduğu qənaətindədir.

## Xəbər lenti

**Avstraliya**da aprel ayında aparılmış ümumxalq səsvermənin əsasən, əhalinin 64%-i kilsənin vergiyə cəlb olunmasının tərəfdarıdır. Yalnız 7%-in rəyinə görə kilsə həmişəki kimi vergidən azad olmalıdır. Rəyi soruşulanların böyük əksəriyyətinin qənaəti belədir ki, dini təşkilatlar hər il milyonlarla gəlir götürürlər və bu sahədən vergi tutulmaması ölkə büdcəsində «ağ ləkə» yaranmasına səbəb olur.

**Norveç**in aparıcı partiyaları 2018-ci ilədək korporativ vergi dərəcəsinin tədricən 27 faizdən 23 faizə endirilməsi barədə razılıq əldə etmişlər.

**Yunanıstan** parlamenti uzun sürən müzakirələrdən sonra yeni islahat paketini qəbul etmişdir. Ölkənin borcdan və maliyyə böhranından çıxmasını nəzərdə tutan islahatlar çərçivəsində ölkədə pensiyalar azaldılacaq, vergilər isə artırılacaq.

**Hindistan**a Mavriki və Sinaqpurdan yatırılan investisiyalar 1983-cü ildən bəri vergiyə cəlb olunmur. Hökumət xarici investisiyalardan və ya mənzil satışından gəlirlərə vergi tətbiq etmək məqsədilə həmin ölkələrlə qüvvədə olan sazişlərə yenidən baxılacağını bəyan etmişdir.

**Rusiya**nın Federal Vergi Xidməti (FVX) informasiyanın avtomatik mübadiləsi haqqında qanun layihəsi hazırlamışdır. Layihəyə əsasən, banklar və maliyyə qurumları müştərilərin investisiya gəlirləri, hesab balansı, səhmlərin satışı, əmanətlərin, istiqrazların, yığım sığortaları üzrə müqavilələrin, birillik dövr üçün ödənişlərin hesablardakı qalıqlarının faizləri barədə hesabat verməli, həmçinin hesabın (və ya məsələn, səhmin) benefisiarının kim olduğunu açıqlamalıdır. Bu məlumatların hamısının FVX-yə ötürülməsi zəruri olacaq, bu zaman informasiyanın vergi orqanına verilməsi ilə bağlı müştərinin razılığı tələb olunmayacaq.

# Vergi orqanları 1,3 milyard avrodan keçib

Məlumatlara görə, son 5 il ərzində İrlandiya vergi xidmətinin nümayəndələri tərəfindən məhkəmə iddiası qaldırılmamış ödənilməmiş vergilərin ümumi məbləği 1,3 milyard avro təşkil edir. Bu rəqəmin böyük əksəriyyətini kiçik məbləğli (100 avroya qədər) ödənişlər təşkil edir. Bu cür ödənişlər üçün məhkəməyə müraciət etmək isə iqtisadi baxımdan özünü doğrultmur. İrlandiyanın maliyyə naziri Maykl Nunan demişdir: «Bizim vergidən imtina etməyimiz bir neçə şərtlə bağlıdır - bəzən şirkət və ya vergi ödəyicisi öz borcunu ödəmək iqtidarında olmur, maliyyə aktivləri imkan vermədiyinə görə, onlar ticarəti dayandırmalı olurlar. Bəzən də məhkəmə araşdırmaları əhəmiyyətli dərəcədə iqtisadi xərclər və bürokratik əngəllərlə müşayiət olunur».

İrlandiyada təkcə 2011-ci ildə vergilərin ödənilməməsi ilə bağlı 2 min iş xətm edilmişdir. Bu işlər üzrə batan məbləğ isə ümumilikdə 321 milyon avro təşkil edir.

krossvord



**Yuxarıdan aşağı:** 1.Alma və sitrus meyvələrində polisaxarid; 2.Barokko dövründə yaşayıb yaratmış italyan bəstəkar və skripkaçı; 3.Sonradan kağız üzərində çap etmək üçün metal və ya taxta parçası üzərində qazılmış qabarıq çertyoj (qəlib, forma); 4.Azərbaycanda az rast gəlinən kişi adı; 5.Ritmin sistem və xüsusiyyəti. Ritm haqqında elm; 6.XIX əsrdə Çexiyada yaranmış və xalq rəqsinə çevrilmiş rəqs; 7.Ovçuluqda ikilüləli tüfəngdən eyni zamanda atəş açması; 13.Lev Tolstoyun «Hərb və sülh» romanının əsas qəhrəmanlarından birinin adı; 15.Vedi mifologiyasında bolluq və bağışlama tanrısı; 16.Qədim Romada müxtəlif vəzifəli şəxslərin adı; 17.Ordubad rayonunda kənd; 18.Plenar iclas; 20.Qiymətli metal; 21.İspaniyada bələdiyyə. **Soldan sağa:** 1.XIX əsrin sonlarında Yava adasında qalıqları tapılmış, insana daha artıq bənzəyən meymun növünün adı, «meymun-insan» mənası verir; 8.Əyləncə xarakteri daşıyan idman növü. Kiçik idman avtomobili; 9.Fiqurlu konkisürmədə ən sadə tullanma; 10.Çilidə şəhər və dəniz liman; 11.Xırda doğranmış ət, kərə yağı və undan alınan, düyü ilə yeyilən raqu; 12.Ötən əsrin 60-cı illərdə ABŞ-da yaranmış fəlsəfə və submədəniyyət; 14.ABŞ-ın Florida ştatında şəhər; 19.Proqressin əksi; 21.Populyar Azərbaycan xalq mahnısı; 22.İranın Şərqi Azərbaycan ostanının Qaradağ vilayətindəki yerləşən qala. Xalq arasında daha çox Babək qalası kimi də tanınır; 23.Əsərlərini ləzgi və Azərbaycan dillərində yazmış, XX əsrin ən məşhur Dağıstan şairinin adı. «Mahnı belə yaranır» filmi (1957) onun həyat və yaradıcılığından, ictimai fəaliyyətindən bəhs edir; 24.Afrikanın əsas çayı; 25.Materialist monizmə zidd olaraq kainatın və onun hadisələrinin əsasını bir çox müstəqil mənəvi əsaslar təşkil etdiyini iddia edən idealist fəlsəfi cərəyan.



Əyləncə xarakteri daşıyan idman növü

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Atabəy; 2.Şturval; 3.Ratin; 4.Nekkar; 5.Kolli; 6.Dollar; 9.Qulu *(Əsgərov)*; 13.İzba; 15.Kriolit; 16.Skelet; 17.Mikrob; 18.Təkrar; 20.Limon; 21.Qoyya *(Fransisko)*. **Soldan sağa:** 1.Apşeronsk; 5.Kud; 7.Akustika; 8.Alol; 10.Əlvan; 11.Apuliya; 12.Elçin *(Əzizov)*; 14.Bulka; 19.Kolibri; 21.Qaimə; 22.Lama; 23.Kraysler; 24.Ton; 25.Gibraltar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 10000

## idman

# «Heydər Əliyev kuboku – 2016» turniri başa çatdı

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Bakıda keçirilən yeniyetmə boksçular arasında beynəlxalq turnirə yekun vurulub. Yarışda Azərbaycan boksçuları uğurlu çıxışları ilə fərqləniblər. Federasiyanın Boks Mərkəzində keçirilən yarışda Azərbaycan idmançıları ilə yanaşı, Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, İsrail, İran, Macarıstan, Özbəkistan, Monteneqro və Xorvatiyadan dəri əlcək sahibləri mübarizə aparıblar.



İdmançılar ümumilikdə 13 çəki dərəcəsində qalib və mükafatçıları müəyyən ediblər. Turnirdə Gəncə boks məktəbinin yetirməsi Nəbi İsgəndərzadə (48 kq) finalda gürcüstanlı Mamuka Abuladzeni məğlub edərək yarışın qızıl medalına sahib olub. N.İsgəndərzadə, eyni zamanda, turnirin ən texnikalı idmançısı üçün nəzərdə tutulan xüsusi mükafata da layiq görülüb. Elşən Cəbizadə (52 kq) isə rusiyalı İlya Popova qalib gələrək baş mükafatın sahibi olub. Nicat Həsənov (57 kq) və Məhərrəm Məhərrəmzadə (50 kq-dək) yalnız finalda uduzaraq gümüş medalla kifayətləniblər.

Ümumilikdə Azərbaycan boksçuları 2 qızıl, 2 gümüş və 7 bürünc medalla komanda hesabında ikinci yeri tutublar. Onlar yalnız rusiyalı idmançılardan geri qalıblar. İlk üçlüyü isə Qazaxıstan boksçuları tamamlayıb.

# «Rio-2016»ya doğru daha bir addım

Azərbaycanın şose velosipedi üzrə yığmasının və Sloveniyanın «BTC Llubljana» dünya turu komandasının üzvü Yelena Pavluxina «Rio-2016» Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq uğrunda növbəti lisenziya xalları əldə edib. Velosipedçimiz Çində keçirilən «Tour of Zhoushan İsland» turunda aktivinə daha 12 reytinq xalı yazıb.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı üçgünlük yarışının yekununa əsasən, yığma komandamızın üzvü ümumi təsnifatda 70 velosipedçi arasında 4-cü olub. Yelena Pavluxina mayın əvvəlində Çində keçirilən digər bir yarış - Dünya Turu statusunu daşıyan «Tour of Chongming» veloturunda da uğurla çıxış etmiş və ümumi təsnifatda 9-cu olaraq 30 reytinq xalı qazanmışdı.

Hazırda idmançımız aktivindəki 137 reytinq xalı ilə Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) sıralamasında 685 qadın velosipedçi arasında 70-ci yerdə qərarlaşır. Bu isə Yelena Pavluxinaya «Rio-2016» Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq şansı verir.

Qeyd edək ki, UCI qaydalarına əsasən, qadın velosipedçilərin reytinq xallarını toplaması prosesi mayın 31-də başa çatacaq və yalnız bundan sonra Olimpiya Oyunlarına vəsiqə qazanacaq velosipedçilərin adları açıqlanacaq.




# Pəhləvanlarımız Olimpiadaya hazırlıqlarını davam etdirirlər

Azərbaycanın güləş üzrə yığma komandaları qarşıdan gələn yarışlara hazırlıqları təqvim planında nəzərdə tutulan qrafik üzrə davam etdirirlər. Azərbaycan Güləş Federasiyasından (AGF) verilən məlumata görə, Braziliyada keçiriləcək XXXI Yay Olimpiya Oyunlarına hazırlıq planı üzrə yunan-Roma və sərbəst güləş üzrə yığma komandalar Göygöl Olimpiya İdman Kompleksində, qadın güləşçilər isə Bolqarıstanın Belmeken təlim-məşq bazasında məşq edirlər. Mayın 13-dən Bolqarıstana yollanan qadın güləşçilərimiz ayın 29-dək bu ölkənin yığma komandası ilə birgə hazırlıq keçəcək. Təlim-məşq toplanışına Türkiyə, Belarus və Macarıstan yığmasının üzvləri də qatılıblar. Sərbəst və yunan-Roma güləşi komandalarının təlim-məşq toplanışı isə mayın 15-dən başlayıb və ayın 30-dək davam edəcək.

Yunan-Roma güləşi üzrə təlim-məşq toplanışında yığmamızla birlikdə Kuba, İran və Gürcüstan güləşçiləri də iştirak edirlər. Sərbəst güləşçilərimiz də hazırlıq məşqlərini Kuba komandasının üzvləri ilə birgə davam etdirirlər.

# Olimpiya Oyunlarına 48-ci lisenziyanı qazandıq

Azərbaycan triatlonçusu Rostislav Pevtsov Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya əldə edib. Bununla bağlı Beynəlxalq Triatlon İttifaqı (ITU) tərəfindən Azərbaycan Triatlon Federasiyasına (ATF) təsdiq məktubu göndərilib.

Beynəlxalq Triatlon İttifaqının reqlamentinə əsasən, Yay Olimpiya Oyunlarından əvvəlki 2 il ərzində (2014-2015 və 2015-2016-cı illər mövsümü) triatlonçular dünya və Avropa çempionatları, dünya kuboku yarışları da daxil olmaqla iştirak etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar. Bu müddət ərzində bir sıra yarışlarda uğurla çıxış edən Rostislav Pevtsov Olimpiadada iştirak hüququ əldə edən 52 triatlonçu sırasına düşməyi bacarıb.

Qeyd edək ki, Rostislav Pevtsov Azərbaycana 48-ci lisenziyanı qazandırıb.

## mozaika

### Avropa malyariyadan xilas olub

səhiyyə

Dünya Səhiyyə Təşkilatının (DST) Avropa regionu ölkələri malyariyanın məhv edilməsində mühüm irəliləyişə nail olublar - onlar bu təhlükəli xəstəliyin ötürülməsinin qarşısını ala biliblər.

BMT-nin Xəbərlər Mərkəzinin məlumatına görə, DST-nin Avropa ölkələri regionunda qeydə alınmış yerli malyariya halları 1995-2015-ci illər arasında 90 mindən sıfıra düşüb. DST-nin Avropa Regional Bürosunun direktoru Jujanna Yakab deyib: «Bu, Avropa ictimai səhiyyəsi tarixində mühüm mərhələdir. Mən Avropa liderlərinin güclü siyasi sədaqətinin nəticəsi olmuş bu nailiyyəti ürəkdən alqışlayıram». Bununla yanaşı, J.Yakab sayıqlığı itirməməyə çağırıb, vurğulayıb ki, malyariya Avropaya digər qitələrdən gətirilə bilər. O, «Malyariya ilə mübarizədən onun məhvinə» adlı 2005-ci il Daşkənd deklarasiyasının vacibliyini xatırladıb və bildirib ki, bu sənəd məqsədə çatmaqda - Avropanı malyariyadan xilas etməkdə dönüş mərhələsi olub. Deklarasiya 2006-2015-ci illərdə Regional Strategiyanın əsası olub.



Qeyd edək ki, DST iyulun 21-22-də Aşqabadda malyariyanın yayılmasının qarşısının alınması üzrə ilk iclasını keçirəcək.

### Müalicə üçün investisiya

Dünya Səhiyyə Təşkilatının (DST) yeni tədqiqatlarına əsasən, depressiya və sinir pozuntuları hər il qlobal iqtisadiyyata bir trilyon dollar ziyan vurur.

1990-2013-cü illərdə depressiya və sinir pozuntularından əziyyət çəkən insanların sayı demək olar ki, 50 faiz, yəni 416 milyondan 615 milyon nəfərədək artıb. Bu, dünya əhalisinin 10 faizi deməkdir.

Yeni tədqiqatlar Dünya Bankı və Dünya Səhiyyə Təşkilatının himayəsi ilə Vaşinqtonda keçirilən ikigünlük tədbirdə iştirakçıların müzakirəsinə təqdim olunub. DST-nin baş direktoru Marqaret Çen deyib: «Bilirik ki, depressiya və sinir pozuntularının müalicəsi böyük fayda gətirir, sağlamlığı gücləndirir və rifahın artımına yardımçı olur. Yeni tədqiqat təsdiqləyir ki, müalicə iqtisadiyyata da qazanc gətirir».

Tədqiqatda müalicəyə qoyulan xərclər və insanların sağlamlığının yaxşılaşması baxımından nəticələrin müqayisəsi aparılıb. 36 ölkəni əhatə edən araşdırma aşağı, orta və yüksək gəlirli adamları əhatə edib. Tədqiqat 15 il davam edib. 2016-2030-cu illərdə müalicənin miqyasının genişləndirilməsinə 147 milyard dollar xərclənməlidir. Tədqiqat müəllifləri həyəcanla vurğulayırlar ki, psixi sağlamlığın mühafizəsi üzrə xidmətlərə hazırkı investisiyalar zəruri səviyyədən xeyli aşağıdır. DST-nin 2014-cü ilə aid «Psixi sağlamlıq atlası»nda qeyd olunan məlumatlara görə, hökumətlər psixi sağlamlığın mühafizəsinə orta hesabla büdcənin səhiyyə bölməsindəki xərclərin üç faizini ayırırlar. Aşağı gəlir səviyyəsi olan ölkələrdə bu göstərici bir faizdən az, yüksək gəlirli ölkələrdə isə təxminən beş faizdir.

### Kartof cücəribsə...

EVDƏ LAZIM OLAR

Onu tullamağa tələsməyin. Bu kartofdan çox effektli təbii müalicə vasitələri hazırlamaq mümkündür. Cücərmiş kartofun tərkibində çoxlu miqdarda salonin adlı alkaloid toplanır. Salonin zəhərli maddədir, bu səbəbdən cücərmiş və xüsusilə də yaşıl kartofu yemək olmaz. Lakin o, iltihabı və ağrını götürmək üçün güclü təsirlərə malikdir. Bu səbəbdən, cücərmiş və yaşıl kartof xalq təbabətində müalicəvi vasitə kimi geniş istifadə olunur.

- Bir ovuc kartof cücərtisinin üzərinə bir stəkan araq tökün və həftə ərzində sərin, qaranlıq yerdə saxlayın. Bu qarışıq müxtəlif ağrılar (bel, əzələ, oynaqlar və s.) zamanı çox yaxşı müalicəvi təsir edir. Qarışığı ağrıyan yerə çəkin və yun şal və ya şərflə bağlayın. Bu proseduru axşam yatmazdan əvvəl etmək daha məsləhətdir.
- Yaşıl kartofu yaxşı-yaxşı yuyun (qabıqlarını soymaq lazım deyil), sürtgəcdən keçirin, qazana yığaraq üzərinə çıxana qədər qaynar su tökün və bir qədər qızdırın (qaynatmaq olmaz). Alınmış kütləni qalın pambıq parçaya qoyun və kompres şəklində ağrıyan yerə qoyub digər parça ilə bərkidib üstündən yun şərflə sarıyın.

### Qızılqaz

qırmızı kitab

Elmi ədəbiyyatda adi flaminqo da adlanan bu quşun rəngi çəhrayı ağdır. Boynu və ayaqları uzundur. Dimdiyi əyri, ucu qara, qalan hissəsi isə çəhrayıdır. Əsasən Avropa, Asiya və Afrikada məskən salan Qızılqaz Azərbaycanda Lənkəran, Kür-Araz, Samur-Dəvəçi ovalıqlarının su hövzələrində, Böyük Qızılağac körfəzlərində, Xəzərin sahil sularında, Naxçıvanda Araz çayı sahillərində yayılıb. Əsas məskənləri isə Böyük Qızılağac körfəzidir. Kiçik Qızılağac torpaq bəndi vasitəsilə Xəzər dənizindən ayrılması və şirin su hövzəsinə çevrilməsi, min hektarlarla su - bataqlıq biotoplarının qurudulması nəticəsində adi flaminqonun qışlama sahəsi kəskin azalmışdır.

Qızılqaz dəniz sahillərinin, şor göllərin şoranlıq və bataqlıqlarla əhatə olunmuş dayaz su sahələrində yaşayır. Gündüz və alatoran vaxtı fəal olur. Azərbaycana əsasən qışlamağa gəlir, bəzi illərdə isə yuva qurur, 3 yaşında cinsiyyət yetişkənliyinə çatır, koloniya halında yaşayır. Yuvasını bitki və heyvan qalıqlarından, yaş torpaqdan qurur. Bu quşlar 1 -3 yumurta verir, 30-33 gün kürt yatır. Kiçik yengəclərlə, ilbizlərlə, həşərat sürfələri və xırda yosunlarla qidalanırlar.

XX əsrin 40-cı illərində Böyük Qızılağac körfəzində qışda Qızılqazın maksimum sayı 20 min, 70-ci illərdə 2500, 80-ci illərdə 3100, 90-cı illərdə 7100, XXI əsrin birinci onilliyində isə 15200 fərd olmuşdur. Şirvan və Ağgöl Milli Parklarında 50 -500, Xəzərin sahil sularında isə 50 -300 quş qışlayır.

Azərbaycanda Qızılqazın ovlanması qadağandır. Qızılağac Dövlət Təbiət Qoruğu, Şirvan, Abşeron və Ağgöl Milli parkları və su -bataqlıq sahələrində yasaqlıqlar təşkil edilmişdir. CİTES, Bern, Bonn və Ramsar konvensiyalarına, AEWA sazişinə, Azərbaycanın (1989) və Naxçıvanın (2006) Qırmızı kitablarına daxil edilib.




### Ən vicdanlı şəhərlərdən biri

maraqlı

Ötən il Tokionun sakinləri və qonaqlar tərəfindən fantastik məbləğdə - 3 milyard 424 milyon 11 min 977 yen itirilib. Söhbət həmin şəxslərin market, nəqliyyat vasitələri və digər ictimai yerlərdə unutduğu və digər sakinlər tərəfindən tapılaraq polisə təhvil verilən 32 milyon dollara bərabər məbləğdən gedir. Həmin statistika paytaxt sakinlərinin və turistlərin unutqanlığı barədə deyil, yaponların nə dərəcədə vicdanlı olması faktını da təsdiqləyir.

Tokio şəhərinin polis departamenti hər il bu barədə yeni rekordları açıqlayır. Əvvəlki illə müqayisədə 2015-ci ildə tapılan məbləğ 2,5 faiz artıb. Bu pulların müəyyən hissəsi itki barədə polisə müraciət edən sahiblərinə qaytarılır. Sahibi çıxmayan məbləğ isə dövlət büdcəsinə köçürülür. Burada diqqəti cəlb edən əsas məqam hər şeyin vicdanla və aşkar şəkildə həyata keçirilməsidir.

**Müdriklər deyib ki...**

*«Paxıllıq ağıl üçün göz xəstəliyidir, paxıllıqdan ağlın gözləri tutulur».*
*Əbdürrəhman Cami (1414-1492)*

